www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 mart 2019-cu il Çərşənbə axşamı № 51 (7221) Qiyməti 60 qəpik

**Xəbər**

## Energetik içkilər ölüm saçır - aparıcı qız dünyasını dəyişdi

yazısı səh.14-də

**Gündəm**

### Xameneyinin "Qarabağ İslam torpağıdır" fitvasının açması



İranın Azərbaycandakı səfirliyi Paşinyanın Tehran görüşü ilə bağlı bəyanat yaydı

yazısı səh.3-də

### Prezidentin böyük islahatlar proqramı "ASAN Xidmət"lə başlayıb

yazısı səh.4-də

### "Kupça"sız fərdi evlərin sənədləşdirilməsi yenidən gündəmdə

yazısı səh.3-də

### Partiya sədrləri də prezidentlə görüşmək istəyir?

yazısı səh.4-də

### Qarabağ Komitəsində Akif Nağı müəmması

yazısı səh.6-da

### İşğalçı Ermənistanın Arazboyu qanunsuz məskunlaşdırma planları

yazısı səh.11-də

### Azərbaycanla İsveçrə arasında sıx əlaqələrin izahı - dəqiq faktlar

yazısı səh.9-da

### "Fəxrəddin Aboszodə siyasi məhbus ola bilməz"

yazısı səh.10-da

### Misir şeyxinin çoxarvadlılıqla bağlı açıqlaması qalmaqal yaratdı

yazısı səh.13-də

### Həbsdəki OMON komandirinin qızından müraciət: "Atamı əfv edin"

yazısı səh.10-da

### Dəbdəbəli məzarlarla bağlı qanun layihəsi gecikir - səbəb

yazısı səh.15-də

# NİKOLUN BÖYÜK YALANI ÇIXDI - "ERMƏNİSTANDA İQTİSADİ MÖCÜZƏ OLMAYACAQ!.."

**Dünyanın ən nüfuzlu maliyyə mərkəzlərindən ermənilərə bəd xəbər:** "Bu ölkədə sıçrayışlı inkişaf haqda vədlər əsassızdır"; **erməni nəşri:** "Cəmiyyət anlamağa başlayıb ki, Paşinyanın "sehrli çubuğu" yoxdur..."




yazısı səh.8-də

## İş adamının qətlinin 9 il gizli qalan təfərrüatları - cinayət dosyesi

Xirtdəyi kəsilərək öldürülən Nəcimə Babayevanın qızı ilginc açıqlamalar verdi; "anamızı öldürən killeri kimin sifariş etdiyini bilirik"

yazısı səh.12-də




### Maliyyə nazirindən sahibkarlara şad xəbər

yazısı səh.5-də



*Hadi Rəcəbli:*

### "Mən 15 yaşımda 45 manata fəhlə işləmişəm, məgər çətinlik nədir, bilmirəm?"

yazısı səh.7-də



*Elman Nəsirov:*

### "Mənə qarşı ləkələmə kampaniyasının səbəbi odur ki..."

yazısı səh.5-də

# Prezident teatrların inkişafına 1,8 milyon manat ayırdı

**Prezident İlham Əliyev Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Azərbaycan teatr sənəti ölkəmizin ictimai-mədəni həyatında daim fəal rol oynamışdır. Xalqımız milli ədəbiyyatın qiymətli nümunələri ilə yanaşı, dünya dramaturgiyasının inciləri ilə məhz Azərbaycan teatrının dolğun repertuarı sayəsində yaxından tanış olmaq imkanı əldə etmişdir. Cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanması və estetik zövqün formalaşdırılmasında teatrın əvəzsiz xidmətləri vardır.**

Azərbaycan teatrının fəaliyyəti həmişə olduğu kimi, bu gün də dövlətimizin diqqət mərkəzindədir. Milli teatrın parlaq bədii irsinin qorunması, teatr sahəsində islahatların aparılması, teatr mədəniyyətinin təbliği və bütövlükdə Azərbaycan teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər həyata keçirilir.

Sərəncamda qeyd edilir ki, Azərbaycan teatr ənənələrinin qorunub saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 1,8 milyon (bir milyon səkkiz yüz min) manat, o cümlədən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının hər birinə 200,0 (iki yüz) min manat, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrının hər birinə 100,0 (yüz) min manat ayrılsın.

Maliyyə Nazirliyi sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.




# Gəncə Şəhər İcra Hakimiyyətinə 11 milyon manat ayrılıb

**Prezident İlham Əliyev "Gəncə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi haqqında" sərəncam imzalayıb.**

"Report" xəbər verir ki, sərəncamla Gəncə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 11 milyon manat, o cümlədən küçələrin əsaslı təmiri üçün 4 milyon manat, işıqlandırma sistemlərinin yenilənməsi üçün 1 milyon manat, əhaliyə kommunal xidmətlər göstərilməsi sahəsində istifadə olunan maşın və mexanizmlərin alınması üçün 6 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb

Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# Prezident İlham Əliyev ABŞ Etnik Anlaşma Fondunun prezidentini qəbul edib

**Prezident İlham Əliyev martın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



ONA agentliyi xəbər verir ki, Mark Şnayer dinlər və mədəniyyətlərarası dialoqun təşviqi və müxtəlif dini və etnik icmaların sülh şəraitində birgə yaşaması baxımından Azərbaycanın nümunəvi dövlət olduğunu və dünyada bu işə öz töhfəsini verdiyini bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, multikulturalizm və müxtəlif etnik və dini icmaların Azərbaycanda dinc yanaşı yaşamalarının təmin edilməsi dövlət siyasətidir və eyni zamanda, xalqımızın əsrlər boyu yaşatdığı həyat tərzidir.

Söhbət zamanı dinlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun möhkəmlənməsi və dünyada təşviq edilməsi işində Azərbaycanda böyük önəm daşıyan beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu və ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi vurğulanıb.



## "Formula 1" qrupu ilə müqaviləni uzatmaqla Azərbaycan 50 milyon dollara qənaət edəcək

**"Formula 1" qrupu ilə əməkdaşlıq müqaviləsini 2023-cü ilədək uzatmaqla Azərbaycan 50 milyon dollara qənaət edə bilər.**

«Trend»in məlumatına görə, bunu Bakı Şəhər Halqası əməliyyat şirkətinin marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Nigar Arpadarai "Formula 1" yarışlarının keçirilməsinin iqtisadi və sosial faydası" mövzusunda dəyirmi masa zamanı deyib.

N.Arpadarainin sözlərinə görə, müqavilənin uzadılması Azərbaycana yeni gəlir mənbələri əldə etməyə imkan verir, eyni zamanda bu mənbələrdən, eləcə də sponsorluqdan əldə olunan gəlirlər 50 milyon dollara qənaət etməyə imkan verəcək:

"2016-2017-ci illərdə Azərbaycan yarışlardan ümumilikdə 277,3 milyon dollar gəlir əldə edib. Bunlardan 164,2 milyon dolları birbaşa gəlirlərdir. Eyni zamanda 2016-cı ildən bugünədək dolayı gəlirlərin həcmi 14,9 milyon dollar təşkil edib".

## Bu il Mahaçqala-Dərbənd-Bakı sürət qatarı işə düşə bilər

**Dağıstan hakimiyyəti 2019-cu ildə Mahaçqala-Dərbənd-Bakı marşrutu ilə sürət qatarının işə düşəcəyinə ümid edir.**

Trend-in məlumatına görə, bunu Dağıstanın nəqliyyat və yol təsərrüfatı naziri Şiruxan Hacımuradov geniş kollegiya iclasında deyib.

Nazir bildirib ki, 2019-cu ildə və yaxın perspektivdə Mahaçqala vağzalının yenidən qurulması planlaşdırılır: "Həmçinin Dərbənd-Mahaçqala-Mineralnıye Vodı-Kislovodsk sərnişin qatarı və Mahaçqala-Dərbənd-Bakı sürət qatarının təşkili nəzərdə tutulur".

Mahaçqala-Bakı yeni dəmiryol nəqliyyatı məsələsinə 2018-ci il aprelin əvvəlində baxılıb. Bundan əvvəl o da bildirilirdi ki, Mahaçqala və Bakı arasında birbaşa aviareys açmaq planlaşdırılır.



# Ölkədə uzunömürlülüyün ən çox və ən az qeydə alındığı ərazilər açıqlandı

**Milli Elmlər Akademiyası Fiziologiya İnstitutu uzunömürlülük indeksinin aşağı və yüksək olduğu ərazilərin adlarını açıqlayıb. Fiziologiya İnstitutunun Uzunömürlülüyün fiziologiyası laboratoriyasının aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Sevinc Hüseynova «Trend»ə deyib ki, Azərbaycanda ən yüksək uzunömürlülük indeksi cənub bölgəsi və Dağlıq Qarabağ rayonlarında qeydə alınır. Uzunömürlülük indeksinin aşağı olduğu ərazilər isə Mingəçevir, Abşeron yarımadası, Göyçay, Ucardır:**

"Elə hesab edilir ki, Qəbələ Radiolakasiya Stansiyası (RLS) Qəbələ əhalisinin sağlamlığına təsir edir. Bu, əslində səhv fikirdir. Qəbələ rayonu RLS-in arxa hissəsindədir, stansiyanın əsas - ön hissəsi Uçar, Ağdaş, Göyçay rayonlarına doğru olduğundan şüalanma bu ərazilərə düşür. RLS intensiv işləyəndə Qəbələnin İsmayıllıya yaxın kəndlərində uzunömürlülük indeksi aşağı düşürdü. İvanovka kəndinin sakinləri də RLS-in fəaliyyətindən narazı idilər. İndi RLS-in fəaliyyəti dayandığından İvanovkada uzunömürlülük indeksi artıb".

S.Hüseynova qeyd edib ki, uzunömürlülük nəsillə davam edə bilsə də, ekoloji amillərin də təsiri var:

"Apardığımız tədqiqatlardan məlum olub ki, uzunömürlülük populyativdir, yəni populyasiya şəklindədir. Müəyyən nəsil var ki, onlar uzunömürlüdürlər. Əgər ekoloji mühit yaxşı olarsa, həmin nəsildə bu gen itməyərək nəsildən-nəslə ötürülür. Amma babası, nənəsi, atası uzunömürlü olan şəxs ekoloji mühiti pis olan ərazidə yaşayırsa, təbii ki, bu amil onun ömür uzunluğuna mənfi təsir edir".

Xatırladaq ki, ötən ilin əvvəlinə olan məlumatlara əsasən, Azərbaycanda 90 yaşından yuxarı olan təxminən 10 min uzunömürlü var. Yaşı 100 və 100-dən yuxarı olan uzunömürlülərin siyahısına isə daha çox qadınlar düşüb. Belə ki, ölkədəki uzunömürlülərin 814 nəfəri qadın, 24-ü kişidir.

## Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib

**Prezident yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

"Report" xəbər verir ki, iclasda daxil olan müraciətlərin daha bir hissəsinə baxılıb.

Bildirilib ki, indiyədək 400-dən çox müraciətə baxılıb, növbəti iclaslarda müraciətlərin qalan hissəsinə baxılması da nəzərdə tutulur.

Qeyd edək ki, komissiyaya daxil olan müraciətlərə baxıldıqdan sonra siyahı prezident İlham Əliyevə təqdim ediləcək. Dövlət başçısının Novruz bayramı ərəfəsində əfv sərəncamı imzalayacağı gözlənilir.

## Rusiya ABŞ-la raket sazişindən çıxıb

**Rusiya prezidenti Vladimir Putin ölkəsinin Orta və kiçik mənzilli raketlərin məhv edilməsi Müqaviləsindən çıxması haqqında əmr imzalayıb.**

ONA-nın Rusiya mətbuatına istinadən xəbərinə görə, Rusiya XİN-ə müqavilə iştirakçılarına, o cümlədən ABŞ-a bu barədə məlumat vermək tapşırılıb.

Sənəddə bildirilir ki, "ABŞ müqavilə üzrə öhdəliklərinin pozulmasını aradan qaldırana və ya onun müddəti başa çatana qədər Rusiya müqaviləndən çıxır".

Qeyd edək ki, Orta və kiçik mənzilli raketlərin məhv edilməsi Müqaviləsi 1987-ci ildə ABŞ prezidenti Ronald Reyqan və SSRİ lideri Mixail Qorbaçov tərəfindən imzalanıb.

## Azərbaycanın "İnterpol" xətti ilə axtarışa verdiyi şəxs Türkiyədə saxlanıldı

**Azərbaycan dövlətinin beynəlxalq axtarışa verdiyi şəxs tutulub. "Report" xəbər verir ki, "İnterpol" xətti ilə beynəlxalq axtarışda olan 26 yaşlı Ağayar Ağazadə Türkiyədə saxlanılıb.**

Cinayət Məcəlləsinin 206-cı (Qaçaqmalçılıq) və 240-cı (Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi) maddələri ilə axtarışa verilmiş A.Ağazadənin Azərbaycana ekstradisiya edilməsi istiqamətində iş aparılır.

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019

**Ermənistanın baş naziri Nikol Paşinyanın İrana səfəri və bu ölkənin rəhbərliyi ilə görüşməsi, daha sonra erməni icması qarşısında çıxışının doğurduğu etirazlar davam edir. İran XİN isə Paşinyanın Ararat idman kompleksində Dağlıq Qarabağ münaqişəsinə dair erməni dilində bir neçə plakatın asılmasını "özbaşına atılmış bir addım, qəbuledilməz" adlandırıb.**

# Xameneyinin "Qarabağ İslam torpağıdır" fitvasının açması

## İranın Azərbaycandakı səfirliyi Paşinyanın Tehran görüşü ilə bağlı bəyanat yaydı

Bu hadisə İranın özündə də narazılıqla qarşılanıb, xüsusən də İran azərbaycanlıları bu səfəri tənqid edirlər. Və qeyd olunur ki, İranın ali dini lideri Qarabağ münaqişəsi barədə hələ bir neçə il əvvəl fitva verib, bu torpaqları İslam torpaqları adlandırıb. Yeri gəlmişkən, ötən həftə Təbrizdə Cümə namazı sonrası "Qarabağ İslam torpağıdır" yazılmış plakatlarla aksiya keçiriblər. Cümə günü axşam isə Təbrizdə keçirilən futbol yarışında azərbaycanlı azarkeşlər Azərbaycana dəstək şüarları səsləndirib.

Ancaq bu şüarlar da Azərbaycanda irad doğurub. Bir çoxları şüarda "Qarabağ İslam torpağıdır" yazılmasına irad bildirərək, bunu bir mənada İranın Azərbaycana münasibətinin təzahürü kimi qiymətləndirib. Yəni Tehran hələ də Azərbaycanı müstəqil dövlət kimi qəbul etmədiyi üçün Qarabağı Azərbaycan ərazisi kimi deyil, müsəlman torpağı kimi təqdim edir.

Qeyd edək ki, mövzu yeni olmadığı və bəzi dəqiqləşdirmələrə ehtiyacı olduğu üçün məsələni araşdırmağa çalışdıq. Qeyd edək ki, "Qarabağ İslam torpağıdır" cümləsi yalnız bir şüar deyil, İranın ali dini lideri Ayətullah Seyid Əli Xameneyinin fitvasıdır. Eyni zamanda mərcəyi-təqlid müctəhid olan Əli Xameneyi dini məsələ kimi bu mövzuda fitva verib.

Hələ 2010-cu ildə Ali dini liderin dəftərxanası, SalamNews



İnformasiya Agentliyinin Qarabağ münaqişəsi ilə bağlı mövqeyi öyrənmək üçün göndərdiyi sorğusuna cavab verib. Cavabda qeyd olunur ki, "Ayətullah Xameneyinin Qarabağ məsələsində mövqeyi ilk gündən çox açıq və konkret olub. Qarabağ - müsəlman torpaqlarıdır. Onun azadlığı uğrunda ölənlər - şəhiddirlər. Qarabağı işğal etmiş separatçı rejimlə hər cür əlaqə qurmaq - haramdır və qanunla qadağandır. Bu, ilk növbədə bir fəqih kimi onun fətvasıdır. Bu fətva - şəriətin hökmüdür və bütün müsəlmanların mövqeyi belə olmalıdır".

Eyni zamanda açıqlamada qeyd olunur ki, "bu, həm də ölkə rəhbəri kimi onun siyasi mövqeyidir. Belə ki, separatçı rejimlə hər hansı əlaqə sübut olunarsa, bu barədə cinayət işi qaldırılmalıdır. Onu da bilmək lazımdır ki, bu mövqe heç vaxt dəyişməyəcək".

Bundan bir qədər sonra, 2012-ci ildə İran parlamentinin Ərdəbil şəhərindən seçilmiş deputatı Mənsur Həqiqətpur dini lider Xameneyinin işğal olunmuş Qarabağla bağlı fitva verdiyini bəyan edib. Modern.az bildirir ki, deputat bu barədə "Səhər" TV-yə müsahibəsi zamanı deyib ki, "Ermənistanla Azərbaycan arasında savaşla bağlı biz Ayətullah Xameneyiyə müraciət etdik ki, ermənilər Qarabağı tutublar. Vəzifə nədir? O Həzrət isə buyurmuşdur ki, Qarabağ İslam torpağıdır və hər kəs oranın azadlığı uğrunda və qeyri-müsəlmanların ora hökmran olmağına qarşı hərəkətdə canını itirsə, şəhid hesab olunur".

Bu fitvalarda Qarabağın Azərbaycan deyil, İslam torpağı kimi tanıdılması fitvanın dini sənəd olması ilə bağlıdır. Müctəhid hökmünü siyasi və ya sosial, tarixi səbəblər üzərində deyil, dini əsaslar üzərinə köklәyir. Bir fitvanın əhəmiyyəti də onun dini baxımdan şərtlərə, ölçülərə uyğun gəlməsidir. Bu mənada fitvada siyasi mənsubiyyət deyil, dini mənsubiyyət əsas gətirilib. Çünki Qarabağda savaşıb ölən insanın şəhid olması üçün onun müsəlman, yəni İslam ölkəsi, torpağı olması şərtdir. Eyni formada Fələstin münaqişəsi Mərakeşdən İndoneziyaya qədər bütün müsəlman ölkələrində dini məsələ kimi qəbul olunur. Əlbəttə, Azərbaycan Qarabağ münaqişəsinin dinlər arasında münaqişə kimi tanıdılmasında maraqlı deyil. Lakin istənilən halda məsələyə dini kontekstdən yanaşdıqda yozum məhz bu formada ortaya çıxır.

Yeri gəlmişkən, 1990-cı illərin əvvəllərində Ayətullah Xameneyi ilə yanaşı, müctəhidlər Ayətullah Qulpayiqani, Fazil Lənkərani kimi şəxslər də Qarabağla bağlı oxşar fitva veriblər.

Ancaq o da məlumdur ki, İran hakimiyyəti həm 1990-cı illərdə, həm də sonrakı dövrdə Ermənistanla münasibətlər qurub və qonşuluq əlaqələrinə vurğu etməklə bu əlaqələrini davam etdirib. Bu isə Bakı ilə Tehran arasında zaman-zaman soyuqluqlara səbəb olub. Xüsusən də atəşkəsdən sonrakı illərdə Azərbaycan və İran münasibətləri müxtəlif səbəblərdən heç də həmişə isti olmayıb, Ermənistan isə mümkün qədər Tehranla yaxınlaşmağa çalışıb. Xəzərin statusu, Azərbaycanın qərbyönlü kursu, eləcə də tarixi mövzulardan doğan mübahisələr Bakı ilə Tehran arasında hər zaman məsafəli davranışa səbəb olub. Ancaq bunun əvəzində İrəvan Tehranla hər hansı ərazi mübahisəsi və ya fikir ayrılığı yaşamayıb və ya bunu üzə çıxarmayıb.

**Qeyd edək ki, ötən gün İran İslam Respublikasının Azərbaycandakı səfirliyi son hadisələrlə bağlı bəyanat yayıb. Bəyanatda qeyd olunur ki, baş nazir Paşinyanın ermənilərlə görüşdə səsləndirilmiş şüar və plakatlar özbaşına hərəkət olub:** "İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi bəyan edir ki, İran İslam Respublikasının dövlət rəsmiləri Ermənistanın baş naziri ilə Tehranda yaşayan bir qrup erməninin Ararat klubunda baş tutmuş özəl görüşünə heç bir müdaxilə etməmiş, bu görüşdə asılmış plakat və səsləndirilmiş şüarları, İran XİN-in hörmətli sözçüsünün də dediyi kimi, özbaşına atılmış və qəbuledilməz bir addım kimi qiymətləndirir və bunu pisləyir. Vurğulamaq istərdik ki, İran İslam Respublikası Azərbaycan Respublikasının müstəqillik qazandığı ilk və çətin günlərində həmişə Azərbaycan dövləti və millətinin yanında olmuş, Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləmiş və bu siyasətini dəyişməyəcəkdir. Həmçinin düşünürük ki, Qarabağ münaqişəsi Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət prinsipi əsasında və sülh danışıqları yolu ilə iki tərəf arasında həllini tapacaqdır".

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# "Kupça"sız fərdi evlərin sənədləşdirilməsi yenidən gündəmdə

## Bu məsələnin həlli ilə bağlı ciddi addımların atılacağı gözlənilir

**Bir müddət əvvəl ölkə prezidenti çoxmərtəbəli yaşayış evlərinin istismara qəbulunun asanlaşdırılmasını nəzərdə tutan fərman imzaladı. Rəsmi məlumatlara görə, fərmanın icrası nəticəsində yalnız Bakı şəhərində 400-dək yaşayış binası istismara qəbul ediləcək ki, bu da minlərlə mənzilə mülkiyyət hüququnu təsdiq edən sənədin alınmasına gətirib çıxaracaq.**

Qeyd edək ki, mülkiyyət sənədinin - "kupça"nın olmaması yalnız çoxmərtəbəli binaların deyil, Bakı və ətrafında yüz minlərlə fərdi evin də ən ciddi problemlərindən biridir. Xüsusilə 2000-ci illərdə Bakı ətrafında sənədləşmə aparılmadan tikilən fərdi evlərin sayı bəzi məlumatlara görə, 700 mindən yuxarıdır. Bundan əlavə, Bakı kəndlərində sovet dövründən tikilmiş evlərin çoxusunun da "kupça"sı yoxdur.

Hələ 2010-cu ildə Bakı və ətraf qəsəbələrin inkişafına dair ikinci dövlət proqramının təqdimatı keçirilində prezident İlham Əliyev qeydiyyatsız evlərin sənədləşdirilməsi ilə bağlı məsələ qaldırmışdı. Ölkə başçısı sənədsiz tikililər məsələsinin paytaxt üçün ciddi sosial problemə çevrildiyini bəyan edərək, müvafiq strukturla-



ra, xüsusilə Bakı Şəhər İcra Hakimiyyətinə sənədləşmə ilə bağlı xüsusi tapşırıq vermişdi.

2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə prezident İlham Əliyev rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini deyib.

Sonradan - 2012-ci ilin iyun ayında prezident magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədilə komissiya yaradılması haqqında sərəncam imzaladı.

**2014-cü ildə BŞİH-dən verilən məlumatda 4 kateqoriya üzrə siyahı hazırlanaraq Nazirlər Kabinetinə təqdim edildiyi qeyd olunub:** "Bakı Şəhər İcra Hakimiyyəti müvafiq qurumlarla birgə 1900-1950-ci ilədək, 1975-ci ilədək, 1990-2000-ci ilədək və 2012-ci ilədək tikilən sənədsiz tikililərin siyahısını tərtib edib".

Nəhayət, prezident 2015-ci il yanvarın 13-də sənədsiz evlərlə bağlı problemin həllinə dair "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanun qüvvəyə minənədək əldə edilən və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin siyahısı"nın təsdiq edilməsi barədə fərman imzaladı. Fərmanla müəyyən edilir ki, siyahıda nəzərdə tutulmuş sənədlər müvafiq əmlaka hüququn əmələ gəldiyi anda həmin əmlak magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində yerləşmədiyi hallarda daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması üçün əsas hesab edilir.

Bundan başqa, Əmlak Məsələləri Dövlət Komitəsi, birtipli layihələr əsasında inşa olunmuş dövlət və ya ictimai mənzil fonduna aid çoxmənzilli binalarda yaşayış sahələri üzərində hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatı məqsədilə texniki inventarlaşdırma işləri aparılan zaman mənzilin (otağın) sahəsinin faktiki göstəriciləri (əlavə tikililər istisna olmaqla) ilə qeydiyyat sənədlərindəki, eləcə də order və kirayə müqavilələrindəki göstəricilərin fərqli olduğu aşkarlandıqda, daşınmaz əmlakın dövlət reyestrində hüquqların qeydiyyatının sahənin faktiki göstəriciləri əsasında aparılmasını təmin etməlidir.

Prezidentin fərmanından 4 il keçməsinə baxmayaraq, hələ də Bakıda sənədsiz fərdi evlərin çıxarışla təmin olunması məsələsi həll edilməyib. Yüz minlərlə insan evinə sənəd əldə edib, qeydiyyata düşə, adi mülkiyyət hüququndan istifadə edə bilmir. Bəzi məlumatlara görə, çoxmərtəbəli yaşayış binaları ilə bağlı fərman imzalandıqdan sonra hökumət fərdi evlərlə bağlı da analoji addım atmağa hazırlaşır.

**Millət vəkili, Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədovun "Yeni Müsavat"a bildirdiyinə görə, fərdi evlərin sənədləşdirilməsi daim diqqətdə saxlanılan məsələlərdən biridir:** "Bir neçə il əvvəl cənab prezident bu məsələ ilə bağlı tapşırıq vermişdi. Bakı Şəhər İcra Hakimiyyəti bu tapşırığa uyğun olaraq, bütün rayonlar üzrə məlumatları toplayıb hökumətə təqdim etdi. Amma nədənsə bu məsələ dayandı, irəliləyiş olmadı. Bəlkə də bu, son vaxtlar Bakıda aparılan böyük söküntü işləri ilə bağlıdır. Bildiyiniz kimi, xeyli sayda "kupça"sı olmayan evlər sökülür, sahiblərinə kompensasiya verilir. Yəqin ki, bu proses yekunlaşandan sonra məsələ dəqiqləşəcək".

**Millət vəkilinin fikrincə, sənədsiz fərdi evlərlə bağlı da müəyyən addımların atılacağı istisna deyil:** "Son zamanlar cənab prezident çoxsaylı insanların problemlərinin həllinə dair fərman və sərəncamlar imzalayıb. Güman edirəm ki, bu məsələnin həlli ilə bağlı da ciddi addımların atılması mümkündür".

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov sənədsiz həyət evlərinin sənədləşdirilməsi ilə bağlı 5 il əvvəl hökumətə təkliflər göndərdiklərini deyir:** "Fərdi evlərin sənədləşdirilməsi çoxmərtəbəli binalara nisbətən daha mürəkkəb prosesdir və çətin başa gələn işdir. Bu da onunla əlaqədardır ki, fərdi evlərin bir qismi qadağan olunmuş ərazilərdə - SOCAR ərazisində, magistral qaz, elektrik, su xətlərinin mühafizə zolağında inşa olunub. Bizdə olan məlumata görə, hökumət sənədsiz evlərlə bağlı araşdırma aparılır. Bu araşdırma yekunlaşandan sonra bu evlərin sənədləşdirilməsi istiqamətində addımların atılması mümkündür".

**İqtisadçı-ekspertin sözlərinə görə, fərdi evlərin sənədləşdirilməsi ciddi sosial problemdir:** "Bir çox vətəndaşlar heç də tam sənədsiz iş görməyiblər. Onlar ya icradan, ya bələdiyyədən ilkin sənədlər alıblar. Bizim monitorinqlərimiz göstərir ki, bu sənədləri vətəndaşlar ödəniş etməklə əldə ediblər. İndi onlar həmin sənədlərlə evlərinə çıxarış ala bilmirlər. Bu isə onların mülkiyyət hüquqlarının tanınması və qorunmasında problemlərlə üzləşməsi deməkdir. Bu hüquqların qorunması üçün fərdi evlərin sənədləşdirilməsi çox vacibdir. Belə bir addım atılarsa, həm yüz minlərlə vətəndaşın mülkiyyət hüququ tanınar, həm də onların fəal iqtisadi həyata qoşulmasına nail olunar. Vətəndaşlar evlərini girov qoymaqla kredit əldə edə bilərlər, onların ödədikləri əmlak vergisi bələdiyyə büdcələrinin artmasına gətirib çıxarar və sair".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019

# Prezidentin böyük islahatlar proqramı "ASAN Xidmət"lə başlayıb

## İslahatlar proqramının önündə maneə olan nazirlərin, iri ranqlı məmurların təmizlənməsi prosesi 2015-dən başlanıb

**Azərbaycan prezidenti İlham Əliyevin 2019-cu ilin ilk iki ayında sosial-iqtisadi sahələri əhatə edən sərəncamları, bir sıra yeni strukturların yaradılması barədə fərmanları, idarəetmə sahəsi ilə bağlı qərarları ölkədə islahatların başlanması kimi təqdim edilir. Bu addımlar şübhəsiz ki, ciddi islahatlardır və prezident bir neçə gün öncə 2019-cu ilin daha böyük islahatlar ili olacağının anonsunu verib.**

Ancaq ölkədə sosial-iqtisadi sahədə, idarəetmə, hökumət strukturlarında islahatların son iki ayda başlandığını söyləyənlər sanki cəmi bir neçə il öncədən start verilmiş bu müsbət prosesi unudurlar. İndi sürətləndiyi müşahidə olunan islahatlar əslində 2013-cü ildən - "ASAN Xidmət"in yaradılmasından başlanıb. Prezident İlham Əliyevin 2014-cü və 2015-ci illərdə keçirdiyi müşavirələrdə verdiyi bəyanatları, imzaladığı sərəncam və fərmanları xatırladıqda da bu aydın görünürdü ki, ölkədə islahatlar prosesi sürət götürəcək.

Prezident keçirdiyi müşavirələrdə iqtisadiyyatı əsasən neft gəlirlərinə söykənən postsovet məkanını bürümüş böhrandan açıq danışırdı, 2016-cı ildə gözlənilən çətinlikləri qeyd edir və ən əsası, bu müşavirələrdə komandasını sərt tənqid edirdi. Bu tənqidlərin ardıcıllığı, ayrı-ayrı sahə nazirlərinə ünvanlanmış sərt mesajlar belə təəssürat yaradırdı ki, prezident Azərbaycanı qlobal iqtisadi böhrandan itkilərsiz keçirmək, xilas etmək üçün çox ciddi plan hazırlayıb və bu plan-proqram tədricən reallaşdırılacaq. Və



belə də oldu.

"Yeni Müsavat" 2015-ci ildə bu barədə yazmışdı ki, prezident müşavirələrində iqtisadi komandadan təkliflər istəyir, neft dövründə büdcənin dolmasına arxayınlaşmış nazirləri hərəkətə gətirmək, bu adamların böhran dövründə çevikliyini yoxlamaq üçün silkələyir. Onlar isə dəftərçələrində hansısa qeydlər aparır, dinləyir, statistik məlumatlar verir və gedirlər... Sanki onlarda bir arxayınlıq var, sanki onlarda hələ də "bizim yerimizə hər şeyi düşünən və qərar verən prezidentimiz var" düşüncəsi hakimdir.

İlham Əliyevin islahat proqramını isə təbii ki, hökumət üzvlərinin işə bu prizmadan yanaşması ilə həyata keçirmək asan deyildi və hökuməti gəncləşdirməyin zərurəti ortaya çıxmışdı. Prezident İlham Əliyev bu zərurəti dəqiqliklə nəzərə aldı və kadr islahatları bu günə qədər də davam edir.

**Prezident İlham Əliyevin 2015-ci ilin 12 oktyabrında keçirdiyi müşavirədəki aşağıdakı açıqlamalarına diqqət etdikdə necə bir hökumətlə, məmurlarla işləmək istədiyini görə bilərik:** "Biz liberal iqtisadiyyat modelini, bazar iqtisadiyyatı yolunu seçmişik. Biz bu yolla gedirik və görün nə qədər uğurlar əldə etmişik. Əgər ölkə daxilində mane olanlar, yoxlamalar, rüşvətxorluq, lisenziyalar, haqq qoymaq olmasaydı biz nə qədər böyük uğurlar əldə edərdik, büdcəmiz nə qədər artardı. Nə qədər buna dözmək olar? Artıq qurtardı, hövsələm yoxdur! Hər kəs nəticə çıxartsın. Nəticə çıxartmasa cəzalandırılacaq". Bütün bunlar həm də komandasına, onlardan daha da çox cəmiyyətə verilən mesajlar idi. Bütün bunlar o demək idi ki, Azərbaycan prezidenti idarəetmənin və dövlət maşınının daha bu cür getməyəcəyini, ciddi dəyişiklik ediləcəyini və ona kim mane olsa, bu maşının altında qalıb əziləcəyini açıq söyləyirdi. 2015-ci ildən indiyə qədər atılan addımlar, islahatlar proqramının uğurlu icrasının önündə maneə olan bir sıra nazirlərin, iri ranqlı məmurların təmizlənməsi prosesi İlham Əliyevin islahatları nəyin bahasına olur-olsun hədəfə çatdırmaqda israrlı olduğunu təsdiqlədi. Bu gün islahatlar prorqamının daha sürətli və əhatəli icra edilməsi məhz son illərdə bu proqramın önünü kəsən maneələrin xeyli dərəcədə təmizlənməsinin, prezident İlham Əliyevin bu prosesi ustalıqla reallaşdırmasının nəticəsidir.

Ekspertlər xüsusi olaraq onu da vurğulayırlar ki, Azərbaycan prezidentinin ölkənin mənzərəsini dəyişəcək böyük islahatlar proqramının anonsu, ən uğurlu layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ASAN Xidmət"in yaradılması idi. Fəaliyyətini vətəndaşların vaxtlarına qənaət etməklə rahat və nəzakətli davranış mühitində dövlət xidmətlərini əldə etməsi prinsipi əsasında quran "ASAN Xidmət" mərkəzləri prezident İlham Əliyevin 2012-ci il 13 iyul tarixli fərmanına əsasən yaradılıb və ilk "ASAN Xidmət" 2013-cü il yanvarın 15-də vətəndaşlara xidmət göstərməyə başlayıb. "ASAN Xidmət" mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət üçün yaradılmışdı və nəinki Azərbaycan üçün, dünya üçün çox uğurlu model olaraq özünü təsdiqlədi. Azərbaycanda hökumət idarəçiliyinin asanlaşdırılması üçün "ASAN Xidmət" bir model, baza rolunu oynadı.

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Partiya sədrləri də prezidentlə görüşmək istəyir?

## "Siyasi partiyaların sədrləri ilə görüş siyasi islahatların başlanğıcı kimi qəbul edilə bilər"

**Azərbaycan prezidenti İlham Əliyev sosial-iqtisadi sferanı əhatə edən sərəncamlar verməklə yanaşı, cəmiyyətin müxtəlif zümrələri ilə görüşlər keçirir. Bu görüşlərdə səmimi söhbətlər edilir, prezident hər kəsi dinləyir. Prezidentin bu cür görüşlər keçirməsi Azərbaycan ictimaiyyəti tərəfindən müsbət qarşılanır.**

Bəs siyasi partiyalar da ölkə prezidenti ilə belə bir görüşün keçirilməsini istəyirlərmi?



Sərdar Cəlaloğlu



Tural Abbaslı



Elşad Musayev

**ADP sədri Sərdar Cəlaloğlu** "Yeni Müsavat"a bildirdi ki, prezidentin ictimaiyyətlə görüşlər keçirməyə başlamasını izləyir. Bəzi qüvvələr indiyə qədər xalqla prezident arasına girmişdilər və uçurum olmasında maraqlı idilər. Bu gün prezidentin keçirdiyi görüşlər həmin qüvvələrin niyyətlərinin artıq həyata keçməməsi baxımından müsbətdir: "Prezidentin müxalifət partiyalarının rəhbərləri ilə görüşməsi ölkə üçün lazımdır. Konstitusiyada da qeyd edilir ki, prezident bütün Azərbaycan xalqının prezidentidir. Bir ölkədə iqtidar və müxalifətin görüşlər keçirib müzakirələr aparması həmin ölkədə siyasi mədəniyyətin inkişafının göstəricisidir. Ölkənin kataklizmlərdən uzaq olması üçün də prezidentlə müxalifət təşkilatlarının rəhbərləri arasında görüşlər keçirilməlidir. Bu görüşlər formal xarakterli olmamalıdır. Biz görüş keçirilməsini vacib hesab edirik".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev bildirdi ki, o, siyasi partiyalarla hakimiyyət arasında normal münasibətlərin, dialoqların olmasına müsbət yanaşır:** "Biz hesab edirik ki, ölkənin istənilən problemi ilə bağlı siyasi partiya rəhbərləri ilə ölkə rəhbərliyinin birgə müzakirəsinin keçirilməsi nəzərdə tutularsa bu müsbət olar. Məsələn, Qarabağ probleminin birgə müzakirəsini təşkil etmək olar. Demokratiya, insan haqları, siyasi məhbuslar, korrupsiya, iqtisadi-sosial problemlər, seçki məsələləri və sair məsələlər də müzakirəyə çıxarıla bilər. Amma bu müzakirələr o zaman effektli olar ki, ölkə başçısının iştirakı ilə keçirilsin".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, əgər siyasi partiyaların sədrləri ilə görüş təşəbbüsü olarsa, bu, siyasi islahatların başlanğıcı kimi qəbul edilə bilər:** "Ölkə rəhbərinin hamı tərəfindən gözlənilən və köklü islahatların xəbərçisi ola biləcək addımları göz qabağındadır. Buraya aylardır əziyyət çəkən şəhid ailələrinin kompensasiya məsələsinin həlli, minimum əmək haqlarının, əlillik müavinətlərinin, dövlət işində çalışan texniki işçilərin ödənişlərinin artırılması, yerli telekanala geniş müsahibə verməsi, xalqla birbaşa təmasları, ziyalılar və incəsənət xadimləri ilə keçirilən görüşləri daxil etmək olar. Doğrudur, normal hüquqi və demokratik dövlətlərdə bu sadaladıqlarımız prezidentlərin rutin işi sayılır.

Hələlik prezidentin əsasən sosial-iqtisadi və mədəni sahələrdə dəyişikliklər cəhdinin şahidi oluruq. Əgər bu islahatların əsaslı və effektiv olmasını istəyirlərsə, təbii ki, artıq siyasi sferada da real addımlar atılmalıdır. Bu addımlara siyasi məhbusların azad edilməsi, azad mətbuat rəhbərləri və QHT-lərlə, həmçinin ən başlıcası və önəmlisi real müxalifət partiyaları ilə birbaşa və səmimi görüşün keçirilməsi, ümumi problemlərin birgə müzakirəsi daxildir. Əslində sağlam məntiq də onu deyir ki, son dönəmlərdəki siyasi gedişlərin davamı siyasi partiyalarla prezidentin bir müzakirə masa arxasında toplaşmasıdır. Ancaq bu qərarı biz müxalifət partiyaları deyil, iqtidar verməlidir, bundan irəli gələn addımları da atmalıdır. Biz AĞ Partiya olaraq hər zaman konstruktiv, konkret problemlərin həllinə yönəlmiş, konkret mövzulu və ən əsası şəffaf iqtidar-müxalifət dialoqlarının tərəfdarı olmuşuq. Əgər belə bir təşəbbüs olarsa və AĞ Partiyaya da müxalifət olaraq dəvət gələrsə, biz bu dəvəti məmnuniyyətlə qəbul edərik".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

Yeni Müsavat
N 51 (7221) 5 mart 2019

# Maliyyə nazirindən sahibkarlara şad xəbər

## Hökumət hüquqi şəxslərin kredit borcları ilə bağlı da iş aparır

**Prezidentin fiziki şəxslərin problemli kreditləri ilə bağlı məsələnin həllinə dair fərmanı cəmiyyətdə geniş şəkildə müzakirə olunmaqdadır. Həmçinin hazırda minlərlə kredit borcu olan insan müxtəlif instansiyalara müraciət edərək suallarına cavab almağa çalışırlar.**

**Maliyyə naziri Samir Şərifovun AzTV-yə dediyinə görə, Maliyyə Nazirliyinin internet səhifəsində vətəndaşları narahat edən sualların cavablandırılması üçün xüsusi bölmə hazırlanır:** "Burada vətəndaşların tez-tez soruşduğu suallar cavablandıracaq, eləcə də vətəndaşlara sualları onlayn rejimdə vermək və cavab almaq imkanı yaradacağıq. Güman edirəm ki, problemli kreditlərlə bağlılığı olan digər qurumlar - Azərbaycan Mərkəzi Bankı və Maliyyə Bazarlarına Nəzarət Palatası da vətəndaşlara belə bir imkan yaradacaq".



Maliyyə Bazarlarına Nəzarət Palatası dünəndən etibarən məzənnə fərqinə görə vətəndaşlara ödəniləcək kompensasiyanı hesablayan online kalkulyatoru istifadəyə verib. Palatanın bununla bağlı yaydığı məlumata görə, kalkulyator prezident fərmanının icrasında şəffaflığın təmin edilməsi məqsədilə əsas kredit borclarının devalvasiya nəticəsində manatla artmış hissəsi üzrə nəzərdə tutulan güzəşt məbləğinin vətəndaşlar tərəfindən hesablanması üçün yaradılıb: "Palatanın rəsmi internet səhifəsinə (www.fimsa.az) giriş edən hər bir vətəndaş Ana səhifədə əks olunan "PK - Problemli kreditlərin həllinə dair məlumat" bölməsində yerləşdirilmiş "Kalkulyator"a daxil olaraq müvafiq hissələrə lazım olan məlumatı daxil etməklə əldə edəcəyi güzəşt məbləğini sərbəst şəkildə hesablaya bilər. Kalkulyator "21.02.2015 tarixinə qalıq məbləğ (ABŞ dolları ilə)" və "21.12.2015 tarixinə qalıq məbləğ (ABŞ dolları ilə)" adlı iki boş xanadan ibarətdir ki, bu xanalar birinci və ikinci devalvasiya tarixini əks etdirir. Vətəndaş müvafiq olaraq hər bir devalvasiya zamanı mövcud olan əsas kredit borcunu uyğun xanalara daxil etdiyi zaman üçüncü xanada avtomatik olaraq həmin şəxsin əldə edəcəyi güzəşt məbləği əks olunur. Misal üçün, əgər birinci devalvasiya zamanı vətəndaşın banka 5500 ABŞ dolları məbləğində, ikinci devalvasiya zamanı isə 3000 ABŞ dolları məbləğində əsas kredit borcu qalıbsa, qeyd olunan məbləğləri uyğun xanalara daxil etmək lazımdır. Yalnız bir devalvasiya nəticəsində zərər görən vətəndaşlar həmin devalvasiya zamanı malik olduqları əsas kredit borcunu daxil edərək digər xananı boş saxlayırlar. Qeyd edək ki, digər xarici valyutada olan kreditlərin qalıq məbləği Azərbaycan Respublikasının Mərkəzi Bankının həmin tarixlərə olan rəsmi məzənnəsinə uyğun olaraq ABŞ dollarına konvertasiya olunaraq göstərilir".

Bundan əlavə, mövzu ilə bağlı sual yarandıqda və ya əlavə məlumata ehtiyac olduqda vətəndaşlar Palatanın "966 Çağrı mərkəzi"nə, sosial şəbəkə səhifələrinə, həmçinin saytın "Əlaqə" alt-bölməsində qeyd olunan əlaqə vasitələrindən istifadə edə və ya elektron qaydada müraciət ünvanlaya bilərlər.

**Qeyd edək ki, S.Şərifov fərman imzalanan gündən vətəndaşları narahat edən bəzi məsələlərə də aydınlıq gətirib. Bu məsələlərdən biri də borclu müştərilərə zamin duran şəxslərin ödənişləri ilə bağlıdır. Belə ki, son illərdə məhkəmə qərarları əsasında minlərlə zaminin əmək haqqı və ya təqaüdündən tutulmalar aparılıb. Bununla bağlı S.Şərifov qeyd edib ki, Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı imzalanmış fərmandan zaminlər də yararlana biləcək:** "Ola bilsin ki, hansısa borcalan müəyyən səbəblərə görə kredit öhdəliyini yerinə yetirmək iqtidarında olmayıb. Bu zaman pul ona zamin durmuş şəxsdən tutulub. Yəni zaminin orada əmanəti və yaxud maaş kartı olub, borc avtomatik ondan çıxılıb. Fərmanda yazılıb ki, kompensasiya borcalana ödənilir. Lakin pulu banka onun əvəzinə zamin ödəyibsə, bu zaman borcalana qarşı tələb yaranır. Hesab edirəm ki, borclanlarla zaminlərin münasibətlərinə yenidən baxmaq ehtiyacı yaranır və fərdi qaydada zaminlər məsələsinə baxıla bilər, bu məsələ ilə məşğul ola bilərik".

**Xarici valyutada olan kreditlərlə bağlı daha bir maraqlı məsələ ötən müddət ərzində xeyli sayda kreditin manata restrukturizasiya olunmasıdır. Maliyyə nazirinin verdiyi məlumata görə, prezident fərmanı belə şəxslərə də şamil olunacaq:** "Azərbaycanda devalvasiyadan əvvəl dollarla kredit götürmüş şəxslərin nəzərəçarpacaq hissəsi sonradan həmin krediti manata çevirib. Həmin şəxslər banklardan manatla kredit alsalar da, onlar prezidentin problemli kreditlərin həll edilməsi ilə bağlı fərmanından faydalanacaqlar".

**Nazirin sözlərinə görə, Azərbaycanda problemli kreditlərlə bağlı vəziyyətin kəskinləşməsi devalvasiya ilə bağlı olub və hazırda dövlət bu səbəbi aradan qaldırır:** "İndi sadəcə borcu əvvəlki qaydada ödəmək qalıb. Dövlət borc yükünü təxminən 50 faiz azaldır, yəni tamamilə bağışlamır. Çünki buna gedilsə, borc intizamı pozular, bankların problemləri kəskinləşər".

**Maliyyə nazirinin dediyindən o da aydın olub ki, hökumət hüquqi şəxslərin ödənilməyən borcları ilə bağlı da iş aparır:** "Bəzi şirkətlər banklara olan borclarını vaxtında qaytarmırlar, ödənişlərdə çətinlik çəkirlər. Bu da istər-istəməz bankların fəaliyyətinə mənfi təsir göstərir. Dövlət qurumları bununla bağlı da işləyir. Prezidentin tapşırığı var. Bank sektorunun sağlamlaşdırılması ilə bağlı növbəti proqram hazırlanır, onun maliyyə tutumu müəyyən edilir, yəqin ki, yaxın zamanlarda bu proqram təqdim ediləcək".

**Bununla yanaşı, S.Şərifov banklara verilən dəstəyə baxmayaraq, onların verdikləri kreditlərin faizlərinin hələ də yüksək olduğunu qeyd edib:** "Kredit faizlərinin inflyasiya səviyyəsindən 5-6 dəfə yüksək olması əsaslı deyil. Amma bankların da ola bilsin ki, arqumentləri var və biz onları eşitməliyik".

**İqtisadçı-ekspert İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov da fərmanın icrası ilə bağlı bəzi suallara aydınlıq gətirib:**

**1. Bir şəxs bir neçə bankdan kredit götürübsə, o zaman kompensasiya məbləği necə hesablanacaq?**

- Bir neçə bankda kredit öhdəliyi olan vətəndaşlarımızın keditləri üzrə əsas məbləğ qalıqları toplanacaq və onların cəminə kompensasiya hesablanacaq. Bu zaman devalvasiya baş verən zaman əgər cəmi əsas kredit məbləği 10 min dollardan azdırsa, o zaman kompensasiya hesablanacaq. Məsələn, vətəndaşımız bir bankdan 3 min dollar, digərindən 6 min dollar kredit götürübsə, və bu zaman həmin məbləğlər cəmlənəcək və 9 min dollara kompensasiya ödəniləcək.

**2. Lizinq müqavilələri üzrə kompensasiyanın ödənilməsi nəzərdə tutulubmu?**

- Sənəd xarici valyutada olan kreditlərə kompensasiya, milli valyutada olan kreditlərə güzəşt nəzərdə tutduğundan lizinq müqavilələri üzrə kompensasiyanın ödənilməsi nəzərdə tutulmur.

**3. Ləğv olunmuş banklarda olan kreditlər üzrə kompensasiyaları necə almaq mümkün olacaq?**

- Fərmana əsasən, sözügedən banklardan kredit götürən vətəndaşlarımız da kompensasiyadan yararlanacaqlar və bu prosesə Əmanətlərin Sığortlanması Fondu məsuldur. Fəaliyyətdə olan bank müştərilərində olduğu kimi sizinlə də əlaqə saxlanılacaq.

Qeyd edək ki, dövlət orqanları fərmanın icrası istiqamətində üzərlərinə düşən işləri icra etməyə başlayıblar. Sənədin icrası istiqamətində addımlar atmalı olan tərəflərdən biri də banklardır. Belə ki, banklar Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birlikdə bir ay müddətində fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditləri üzrə vaxtı keçmiş və bu Fərmana əsasən hər bir bank üzrə restrukturizasiya olunmalı kredit borclarının məbləğini və borcluların siyahısını müəyyən etməlidirlər. Bundan əlavə, banklar problemli borcların restrukturizasiyası istiqamətində də addımlar atmalıdılar.

Fərmanın icrası ilə bağlı görülən işlərlə bağlı bir neçə banka müraciət etdik. Maraqlıdır ki, heç bir bank mövcud problemli kreditlərinin həcmi, fərmanın onların neçə müştərisinə şamil olunacağı və sair suallarımızı cavablandırmaq istəmədi.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# "Mənə qarşı ləkələmə kampaniyasının səbəbi odur ki..."

## Elman Nəsirov: "Bu təxribatı edən adam Fransada yaşayan Məhəmməd Mirzəlidir"



**Son iki gündə sosial şəbəkələrdə deputat Elman Nəsirovun adından bir fikir paylaşılır. Fikirdə qeyd olunur ki, E.Nəsirov Azərbaycan bayrağında dəyişiklik təklif edib. Paylaşıma diqqət edək: "Təklif edirəm ki, Azərbaycan bayrağında dəyişiklik olsun. Bayrağımızda əks olunan aypara və səkkizguşəli ilduzun heç bir mənası yoxdur. Aypara və səkkizguşəli ulduzun yerinə Ulu Öndərimiz Heydər Əliyevin şəkli vurulsun".**

E.Nəsirov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hər zaman qaragüruhçu dairələri faktlarla, arqumentlərlə yerində otuzdurur. Sonuncuların son zamanlar fəallaşmasının təsadüf olmadığını deyən müsahibimiz onları "ələbaxan siyasi ünsürlər" adlandırdı: "Xaricdən maliyyə dəstəyi aldıqlarından fəallaşıblar. Mənim bu fikrimi Sərdar Cəlaloğlu da "Yeni Müsavat"ın canlı yayınında təsdiqlədi. Mən bildirdim ki, pulu verən mahnını da sifariş edir. O da təsdiqlədi ki, Azərbaycan müxalifətinə vəsait verilmədiyi üçün xaricdən vəsait alırlar. Bu həqiqət canlı yayında səslənmiş fikirdir. Xarici qüvvələr istəyirlər ki, Azərbaycan iqtidarı idarəolunan olsun. Amma Azərbaycan dövlətinin rəhbəri İlham Əliyev müstəqildir və xarici, daxili imkanlarla müstəqil siyasət həyata keçirir ki, bu da bəzi qüvvələri qane etmir".

**Müsahibimiz bildirdi ki, bu fikirləri səsləndirdiyi üçün qaragüruhçu dairələr onu hədəfə alırlar. Həm YAP-ı təmsil edən millət vəkili, həm də beynəlxalq əlaqələr komitəsinin katibi olduğunu xatırladan E.Nəsirov İ.Əliyevin daxili və xarici siyasətini dəstəklədiyini vurğuladı:** "Xalqımız bu siyasəti dəstəkləyir. Bunu həmin qüvvələrimn gözü götürmür. Qarayaxma kampaniyası da məhz bu səbəbdən aktivləşib. Mənim fəallığım onları qane etmir. Mənə qarşı ləkələmə kampaniyasına başlayıblar. O barəsində sual verdiyiniz sözləri də mən deməmişəm, yazmamışam. Bu, yalan və böhtandır. Mən bunu araşdırdım. Onu "Made in Azerbaycan" qrupu paylaşıb. Bunu konkret edən şəxs isə Fransada sığınacaq tapmış, savadsız, təhsilsiz, nitqi məişət səviyyəsində olan Məhəmməd Mirzəli adlı şəxsdir. Əslində onun soyadı Məhəmməd Savadsız, Təhsilsiz olsa daha düzgün olardı. Çünki Mirzə soyadı bizdə savadı, təhsili ifadə edir. Mən söyləyəndə ki, belə bir fikir söyləməyimlə bağlı mənbə göstərin, məlum oldu ki, heç bir mənbə yoxdur. Belə insanlara qarşı hüquqi müstəvidə tədbir görülməlidir. O adamın yaşadığı Fransada bu cür əməllərə qarşı ciddi mövqe var. Böhtana görə ciddi cəzalar nəzərdə tutulub".

**Müsahibimiz bildirdi ki, M.Mirzəli adlı şəxs prezident İlham Əliyev haqda da mənəviyyata sığmayan ifadələr işlədib. Müsahibimizin sözlərinə görə, onun məskunlaşdığı Fransada 1881-ci ilin iyulun 26-da qəbul edilmiş mətbuat azadlığı haqqında qanunun 30-31-ci maddəsində prezidenti təhqirə görə 45 min avro cərimə və bir ilədək həbs nəzərdə tutulur:** "Mən bilirəm ki, onlar bu sayaq əməllərinə görə dilənçi paylarını alıblar. Qarayaxma kampaniyasını da bu səbəbdən aktiv şəkildə aparırlar. Amma bu əməllərinə görə cəzalandırılanda hay-həşir qoparırlar ki, biz siyasi məhbusuq. Bu cür hallar davam edərsə, hüquqi müstəvidə addım atacağam. Bəzi insanlar bilməlidir ki, insanların şərəf və ləyaqətini alçaltmaq olmaz, bunun cəzası var. Cinayət Məcəlləsində təhqir və böhtana görə cəzalar nəzərdə tutulub. Belə insanlar məsuliyyətə cəlb edilməlidir".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019



# Deputata qarşı trol həmləsi

Xalid KAZIMLI

**Milli Məclisin deputatı Elman Nəsirov deyib ki, son zamanlar sosial şəbəkələrdə saxta profillər vasitəsilə demədiyi sözləri adına çıxarırlar.**

Deputat misal gətirib: "Guya mən demişəm ki, AXC-Müsavat cütlüyünün hakimiyyəti zamanı Azərbaycanda zəlzələ daha çox olurdu, amma indi belə deyil və yaxud da dövlət bayrağının üzərindəki ulduz və gerb götürülsün, Heydər Əliyevin şəkli qoyulsun".

Doğrudan da sosial şəbəkələrdə tez-tez onun adından belə fikirlər yayırlar. Bir də görürsən, Nəsirovun şəklini veriblər, qırmızı fonda isə bu cür sitatlarını iqtibas ediblər.

Ən pisi odur ki, hər dəfə buna yüzlərlə sosial şəbəkə istifadəçisi inanır və şərh bölümündə deputatı söyür, itdən alıb, itə verirlər. Əgər kimsə "xeyr, o belə söz deməyib, harada deyib, mənbə göstərin" deyə şərh yazırsa, o adamı da deputata qatıb söyürlər.

Əsl həqiqət necədir, adıçəkilən adam bu sözü həqiqətən deyibmi, deməyibmi, çox adam araşdırmır, öyrənmir, amma onun "söz"ünü tirajlaya-tirajlaya gedir.

Bu, bir texnologiyadır. İstənilən adamı bu sayaq fəndə məruz qoyaraq, gözdən salmaq, ələ salmaq və vəzifədən salmaq mümkündür.

Elman Nəsirov bu "fənd"ə məruz qalan ilk tanınmış adam deyil və sonuncu da olmayacaq.

Uzun illər öncə baş nazir Pənah Hüseynin də adından belə fikir səslənirdi ki, guya o, "xalqın 95 faizi əleyhimizə olsa da, hakimiyyətdən getməyəcəyik" deyə bir fikir bildirib. Onu həzm eləməyən qüvvələrə məxsus qəzetlərdə bu söz min dəfələrlə təkrarlandı.

Halbuki Pənah Hüseyn belə demişdi: "Hakimiyyət məsələsi seçki yolu ilə həll olunur. Prinsipcə, bu gün kimsə xalqın 95 faizi sizin əleyhinizədir deyirsə, biz seçkidən öncə hakimiyyətdən getməli deyilik. Seçkini gözləməliyik" (*sözlərin sırası fərqli, yaxud da bir-iki söz artıq-əskik ola bilər, amma fikir bundan ibarət idi*).

İsa Qəmbərin dilindən səslənən və tirajlanan bir fikir vardı, guya parlamentin o vaxtkı sədri deputat Maksim Musayevə belə deyib: "Gedin, siz də hakimiyyətə bizim kimi silahla, tankla gəlin".

Halbuki Maksim Musayevlə polemika zamanı işlədilən cümlədə "silahla, tankla" sözləri olmamışdı.

Sirus Təbrizlinin adından yayılan aşağıdakı fikir isə bu günə qədər də tirajlanır. Adətən, heç kəsdən çəkinməyən, sözünü qırmızı deyən, YAP-ın qurucularından biri olan S.Təbrizli hansısa jurnalistin sualına cavab verərkən belə demişdi: "İndi hakimiyyətdə YAP deyil ki. Simasız quldurlar partiyasıdır".

Amma çoxları bu fikri təhrif edərək, "Sirus Təbrizlinin "simasız quldurlar partiyası" deyərkən YAP-ı nəzərdə tutduğunu yazır və tirajlayırdılar. Söhbət isə politologiyada geniş yayılmış "sülh partiyası", "müharibə partiyası" kimi terminlərə keçmiş publisistin obrazlı şəkildə yeni epitet əlavə etməsindən gedirdi. O, YAP-ın üzvü olmayan, ancaq yüksək vəzifələrə daraşıb dövləti və xalqı talayanları nəzərdə tuturdu (*o zaman bir xeyli bu cür məmur vardı, əvvəlcədən YAP üzvü olmamış, heç bir fədakarlıq etməmişdilər, sonradan yaxşı vəzifələr tutmuşdular*).

Axtarsan, ölkədə elə bir siyasətçi yoxdur ki, onun hansısa bir sözü qəsdən təhrif edilməsin, bilə-bilə kontekstdən çıxarılmasın, yanlış yozumlara məruz qoyulmasın.

Bunu effektiv siyasi mübarizə vasitəsi hesab edənlər var. Onlara "axı bu həqiqət deyil, o adam elə söz deməyib" deyəndə cavab verirlər: "Ən yaxşı müdafiə hücumdur".

Hələ çox zaman başqa ibarələrdən də yararlananlar olur: "Ağ divara palçıq atarsan, yapışmasa da, qopub düşsə də, izi qalacaq".

Elədir, böhtanın izi də uzun müddət qalır, söhbəti-sözü də...

Ancaq deputat E.Nəsriovu, özü dediyi kimi, qaralamağı, ləkələməyi kimin sifariş verdiyi, eləcə də bu sifarişin motivi bəlli deyil.

Nədən onu hədəf seçiblər?

Axı bir çox deputatlar tez-tez ictimail fəalların, jurnalistlərin, "radikal müxalif"lərin "polemika-skrinşot-kampaniya" bazarını heç vaxt boş qoymurlar, vaxtaşırı nəsə bir söz deyirlər və "stəkanda fırtına", "nəlbəkidə sunami" başlanır. Bəzən həta onlardfan biri düz söz deyəndə də eyni proses gedir.

Ola bilər ki, E.Nəsirov son aylar bir qədər fəallaşdığına görə hədəfə gəlib, ya da ona qarşı şəxsi antipatiyası olan birinin əlinin altında çox trol var.

Hər halda, cənab deputat hazırda qəti olaraq bu fikirdədir: "Bu, kişilikdən tamamilə uzaq məsələdir".

Təəssüf ki, siyasətdə bu kimi dəyərlər keçərli deyil. Əsas məqsədi siyasi rəqibini nəyin bahasına olursa-olsun, gözdən salmaq, diskreditasiya etmək, susdurmaq, bezdirərək mübarizə meydanından qovmaq olanlar mərdlik, kişilik, dürüstlük hayında deyillər.

**Qarabağ Komitəsi (QK) ətrafında fikir ayrılığı aradan qalxmır. Qurumun təsisçilərindən olan Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağının komitənin son iki iclasını boykot etməsi vəziyyəti daha da gərginləşdirib.**

# Qarabağ Komitəsində Akif Nağı müəmması





## **Akif Nağı:** "Mənim komitədən çıxarılmağım haqda qərar versələr..." **Əvəz Zeynallı:** "Heç kim Qarabağdan üstün deyil"

Tezliklə QAT sədrinin komitədən uzaqlaşdırıla biləcəyi ehtimal edilir. Bununla yanaşı, Azərbaycan Xalq Hərəkatı (AXH) daxilində yaradılan Qarabağ Komitəsinin digər bu adda fəaliyyət göstərən komitə ilə birləşdirilməsi üçün hazırlıqların getdiyi barədə xəbərlər yayılıb. AXH-nin yaradılmasının təşəbbüskarı olan AMDP sədri İsgəndər Həmidovun QK-nı tərk etməsindən sonra komitə daxilində yaranan gərginliyin təsadüfi olmadığı vurğulanır.

**QAT sədri Akif Nağı QK-da qalmaq istədiyini bildirdi:** "Ötən həftə Qarabağ Komitəsinin dönəm sədri Mirmahmud Mirəlioğlu heyətlə gəlmişdi, mövqeyimi dedim. Qarabağ Komitəsində fəaliyyətimi davam etdirmək istəyirəm. Amma iclasların partiya qərargalarında keçirilməsini məqbul saymıram. Mənim komitədən çıxarılmağımla bağlı qərar qəbul etsələr, ümumi işimizin ziyanına olacaq. Ona görə də yaxşı düşünməlidirlər. Amma elə bir qərar olarsa, normal qarşılayacağam. Heç bir problem yoxdur. Əgər AXH ilə birləşəcəklərsə, yaxşı olar. Qarabağ məsələsində səylərin birləşdirilməsinin tərəfdarıyam. Heç kəs məni bəhanə gətirməsin, iş görmək istəyirlərsə, uğurlar arzulayıram. Biz QAT olaraq öz yolumuzla getmişik, çalışmışıq ki, addımlarımız Qarabağın maraqlarına xidmət etsin. Zaman da həmişə bizim düz yolda olduğumuzu təsdiq edib. İsgəndər Həmidov da Qarabağ üçün can yandıran insandır. Amma çox vaxt tələsik qərarlar verir, yanlış addımlar atır. İnanmıram ki, komitədə olanlar onun təsiri altına düşələr. Elə olarsa, təəssüf edərəm, deməli, bəzi adamlara Qarabağ yox, siyasi maraqlar önəmlidir. Mən bir sualın cavabını hələ də tapa bilmirəm ki, bu adamlar nə üçün QAT-ın 25 illik təcrübəsindən, bazasından istifadə etmək istəmədilər. Özləri də bilirlər ki, komitənin 29 sentyabr mitinqinə qədərki uğuru daha çox QAT-ın bazasına söykəndiyimizə görə idi. Bu bazadan imtina etmək, hər halda, məntiqə sığan deyil. Burada qısqanclıq, siyasi ambisiya, yoxsa sifariş rol oynadı, deyə bilmərəm. Özləri də bilirlər ki, bizə qarşı səsləndirdikləri fikirlərin heç bir əsası yoxdur. Hər halda, belə bir vəziyyətin yaranmasına təəssüf edirəm. Məsələ bəlkə də yorğan davası imiş, yəni mənim komitədən uzaqlaşdırılmağım. Amma bununla nəyə nail olacaqlar, bilmirəm. Elə əvvəldən desəydilər ki, komitədən çıx, çıxardım. Tez-tez bəzi dostlarımız belə bir tezis işlədirdilər ki, komitənin üzərində QAT və ya Akif Nağının kölgəsinin olmasını istəmirik. Bilmirəm, budu səbəb, yoxsa yox. Mirmahmud bəylə söhbət etdim. Soruşdum ki, QAT-da iclasların keçirilməsini niyə məqbul saymırsınız. Ənənəvi cavab verdi ki, darısqallığa görə. Başqa bir arqument olmadı. Mən də o arqumenti ciddi qəbul etmədim".

**QK-nın mətbuat xidmətinin rəhbəri Əvəz Zeynallı bildirdi ki, Qarabağ Komitəsində heç bir fövqəladə hadisə baş vermir:** "Hər şey normal, qanunauyğun şəkildə gedir. Akif Nağının o iddiası hər zaman olub. Biz iclasları başqa qərargahlarda keçirmək istəyəndə Akif bəy son vaxtlar daha çox buna qarşı çıxış edirdi ki, bu siyasiləşmək deməkdir. Amma bizim bir şüarımız var idi: "Hər yer Qarabağ, hər kəs Qarabağ". Akif bəyin sərt qərarı var ki, digər qərargahlarda iclaslar olsa, iştirak etməyəcəyik. Düşünürəm ki, bu doğru deyil. Heç kim Qarabağdan üstün deyil. Kiminsə iclaslara gəlib-gəlməməsindən asılı olmayaraq hesab edirəm ki, komitə fəaliyyətini davam etdirəcək. Müəyyən insanların gedişi ilə komitə heç nə itirmədi. Əksinə, qazanc əldə edildi. Belə ki, insanların 2/3-si komitə ətrafında birləşdi. İsgəndər Həmidovun istefasından sonra bu proseslərin baş verməsinin onunla bir əlaqəsi yoxdur. Eyni zamanda onun gedişi ilə komitədə heç nə dəyişməyib. Komitədə dönəm sədrliyi var. İlk günlərdən biz qərara aldıq ki, bu şəkildə fəaliyyət göstərək. Demokratiya baxımından bu, daha düzgün idi. Mən də onun tərəfdarı idim ki, aylıq idarə heyətinin toplantılarının yerini dəyişək. Bunun da bir sıra səbəbləri var. Komitəni Akif Nağının adına çıxanlar daha çoxluq təşkil edirdilər. 29 sentyabr mitinqi keçirilən zaman bəzi mətbuat nümayəndələri bilərəkdən ya da bilməyərəkdən bunu QAT-ın mitinqi kimi qələmə verirdilər. Buna görə düşünürdük ki, Ümid, ADP, KXCP və digər qərargahlarda toplantılarımız ola bilər. Bu təkliflər hər zaman olub. Yəni bunun İsgəndər Həmidovla heç bir əlaqəsi yoxdur. Digər tərəfdən, bilənlər bilir, komitənin iclaslarının canlı yayımlarına baxanlar bunu görüb, QAT-ın ofisində 20-25 stol var. Bizim də toplantılarda hər dəfə 50-60 civarında adam iştirak edir. Təsəvvür edin ki, 30-a yaxın adam ayaq üstdə qalır. Üç saatlıq toplantı zamanı bu sayda insanın ayaqda qalması etik də deyil. Ona görə də bu qərara gəldik ki, komitənin dönəm sədri Mirmahmud Mirəlioğlu olduğu üçün iclasları onun qərargahında keçirək. Komitənin siyasiləşdirilməsindən söhbət gedə bilməz. Xalq Hərəkatındakı Qarabağ Komitəsi ilə bu komitənin birləşdiriləcəyi barədə deyilənlərə gəlincə, deyə bilərəm ki, biz tərəfdən heç bir fəaliyyətdən söhbət gedə bilməz. Qarabağ hər kəsin fövqündə dayanmalıdır. Bura nə mandata, nə də başqa şeylərə görə gəlmək olmaz. Bu baxımdan komitələrin birləşdirilməsindən söhbət gedə bilməz. Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə ziyalılarımıza - Ramiz Rövşənə, Rafiq Əliyevə, Seyran Səxavətə, Arif Babayeva, Mənsum İbrahimova müraciət edirəm ki, Qarabağ Komitəsinə məhz indi gəlmək lazımdır. Millətin səsini komitəyə yığmaq zamanıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019

# "Mən 15 yaşımda 45 manata fəhlə işləmişəm, məgər çətinlik nədir, bilmirəm?"

## Hadi Rəcəbli: "Deyirəm, oğlun gəlsin, fermada işləsin, deyir, Hadı müəllim, ayıb deyil, sənin oğlun fermada işləyər?!"

**Deputat, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli ilə "Açıq hava, açıq söhbət" rubrikasında baş tutan söhbətimizin ikinci hissəsini təqdim edirik. Bu bölümdə onun haqqında ayrı-ayrı media orqanlarında və sosial şəbəkələrdə yayılan məlumatlara, şayiələrə də aydınlıq gətirməsini istədik. Etiraz etmədi, detallı şəkildə suallarımızı cavablandırdı.**

*(Əvvəli ötən sayımızda)*

***- Maraqlıdır, sizin kostyumlarınızı kim geyinir?***

- Mənim böyük ailəmdə onun da müştəriləri var, indi istəmirəm adlarını çəkim. Kostyumu alıram, əynimə bir az böyük olanda verirəm böyük oğluma geyinir. Yaxud kiçik oğlum kiçik ölçülü kostyumumu geyinir. Ya da qızlarımın paltarını yoldaşım, yoldaşımın paltarını qızlarım geyinir. Bizim ailəmizdə belə şeylər normal qəbul olunur. Bu da haradan gəlir? Mənim anam Bəylərova Firuzə xanım Lənkəranda tanınmış tacir Kəlba Yunusun qızı olub, bəy qızı olub. Amma o ailədə bir tezis olub: varlı adam o adam deyil ki, çox qazana, varlı adam o adamdır ki, daha çox qənaətcil ola və pulunu daha çox səmərəli xərcləyə. Bunu Quranda da yazıblar, Allahın sevmədiyi əməllərdən biri israfçılıqdır. Biz bunu demişik. İndi mən bunu deyəndə başqa yerə yozurlar. Mən demişdim ələbaxan olmayaq. Başladılar ki, Hadı müəllim görün nə deyib...

Mən demişdim ki, dağ rayonlarında, tutaq ki, Yardımlı, Lerikdə yaşayan, əl-ayağı üstündə olan ailələrə yardım heyvanla verilsin. Nə qədər müzakirə elədilər? Görürsən, deyirlər Hadı müəllim danışmasın. Hadı müəllim dünya təcrübəsinə istinad edir, kitabları oxuyur, danışır. Onda da nə dedilər: Hadı müəllim ünvanlı yardımın qoyunla verilməsini təklif edir. Amma bu ideya qəbul olundu. İndi nəyə gəlib çıxdıq? Özünüməşğulluq ideyasına. Danışdığımın biri də yaşayış minimumunun qaldırılması idi də. Biz bəzən hadisələri bir az qabaqlayırıq, deyirik qənaətcil olaq, ələbaxımlıq olmasın, məşğulluq olsun, iş yerləri yaradılsın. Məsələn, təhrifin biri nə idi? Səsimi də qoyurlar. Biz dedik populyar və qeyri-populyar iş yerləri. Məsələn, təhsili olmayan adamların süpürgəçi işlədiyini dedik. Bir qadın gəldi dedi, Hadı müəllim, bunun nəyi pisdir, səhər üç saatlıq işə gedirəm, sosial işçi kimi çalışıram, süpürürəm, çıxıb gedirəm evə. Amma bunu götürüb qabartdılar ki, Hadı Rəcəbli deyir süpürgəçilik əla peşədir. Mən tək süpürgəçilikdən danışmamışam. Mənim dediklərimin hamısının canında nə var?.. Məsələn, qadın 8-ci sinfi bitirən oğluna iş axtarır, deyirəm gəlsin, fermada işləsin, deyir, Hadı müəllim, ayıb deyil, mənim uşağım fermada işləsin, sənin oğlun fermada işləyər?! Bəs harada işləmək istəyir? Qayıdır ki, "oxranada yer var?" İndi mən bunları misal gətirirəm. Dünya praktikasına, sosial elmi biliklərə əsaslanaraq. Bu məsləhətlərdir. İstəməyən başqa yol seçsin. Beləliklə, biz hara gəlib çıxdıq? Passiv və aktiv sosial müdafiə sisteminə. Görün, nə qədər qrup insanların problemləri həllini tapdı. 2 milyon 200 min insanın problemləri ən pis halda əlli faiz düzəlibsə, bu, çox ciddi hadisədir. Şəhid ailələri, Qarabağ əlilləri, qaçqın-köçkünlər üçün mənzil tikintisi, onlara verilən müavinətin artması... 500 minə yaxın köçkünün müavinəti əlli faiz artdı. Hər ailə üzvünə vuranda görün nə qədər puldur. Bunların hamısını qoyub deyəsən ki, Hadı Rəcəbli dedi ki, filan-filan...

***- Bu günlərdə sizin obyektlərin, açığını deyim ki, fantastik görünən siyahısını yayıblar, özü də konkret "ünvanlar" göstərilməklə. Bu barədə nə deyə bilərsiniz?***

- Mənimçün yüzlərlə obyekt sayıblar. Yazıblar ki, Lənkəranda 4 şadlıq evi Hadı Rəcəblinindir. O dörd dənədən birinin hətta mənim qohum-əqrəbama ilişiyi varsa, mən o 4 şadlıq evinin dördünü də həmin adamlara bağışlayıram. Yazıblar Bakıda Hadı Rəcəblinin qızının xəstəxanası, klinikası var...Tamam yalandır. Ona uyğun bir balaca fakt tapsalar, bağışlayaram onu yazanlara. Yazıblar Hadı Rəcəblinin qızının uşaq bağçaları kompleksi var. Bir balaca uyğunluq tapsalar, o bağçanı da həmin adamlara bağışlayıram. "Hadı Rəcəblinin villaları, Nardaranda, harada..." Yalan! Ya da yazıblar ki, 7 dənə dükanım, 8 dənə benzindoldurma məntəqəsi, daha nə bilim nələrim, nələrim var. İfrat dərəcədə yalandır! İnanın, fantaziyadır, mən buna gülürəm.

***- Hadi müəllim, yəqin seçkilərə qatılanda gəlir deklorasiyası təqdim etmisiniz. Orada nələri göstərmisiniz?***

- Nəyimiz var, onu. Mənzilim, bağ evim var. Mənim dörd balam var, ağıllı, zəhmətkeş uşaqlardır, hərəsinin də bir tikə çörəyi, evləri, maşınları var. Mənim ailəmin də, əlbəttə, nəyisə ola da bilər. 7 il bundan qabaq biri uydurmalarla dolu şəkilləri, fotomontajı səhifəsinə qoymuşdu, sonra da bir başqa dələduz Lənkəranda nəsə çəkib yaymışdı. Biz elan etdik ki, bunlar yalandır, iftiradır. Ancaq sonra o youtube-dən silinməyən kadrları götürüblər, üstünə 100 dənə də yalan əlavə ediblər və qoyublar səhifələrə. Artıq mənim Lənkərandakı seçicilərim etiraz səslərini qaldırıblar. Bu günlərdə onlar saytların birinə məktubla müraciət edərək müraciətlərinin saytda yayımlanmasını istəyiblər. Lənkəranın bir qrup ziyalısı və Qarabağ veteranları adından görün nə yazılıb: "Son günlər yenidən, dövlətə sədaqətlə xidmət edən, Ulu öndərin siyasi kursunun davamçısı Hadi Rəcəbli ətrafında bir sira müxalif saytlarda, feysbuk səhifələrində guya onun milyardlarla ölçülən mal və mülkləri vardır kimi yanlış və təhrif olunmuş materiallar dərc olunur. Bir seçici kimi biz və bütün lənkəranlılar Hadi Rəcəblini yaxşı tanıyırıq. Bəzi üzdəniraq saytların yazdığı kimi, şadlıq sarayları, villaları, benzindoldurma məntəqələri, mağazalar, kompüter mərkəzlərinin ona və qohumlarına məxsus olmamasını təkidlə israr edirik". Mənim gəlinlərim, nəvələrim zarafatla deyirlər ki, ay papa, ay baba, səniyə bunları bizdən gizlətmisən? (gülür-E.P.) Deyirəm bax, görürsünüz ədalətsizliyi, haqsızlığı?

Mənim ana tərəfdən 9 xalam, dayım var, ata tərəfdən 8 əmim, bibim var. Hərəsinin Lənkəranda 6-7 uşağı yaşayır. Ortaya çıxan, zirək, ağıllı balalar, elmə həvəsli adamlardır. Onlar deyirlər ki, ay Dadaş - mənə "Dadaş" deyirlər - gəl, bunları məhkəməyə verək...Vəkil tutublar. Açıq deyirəm, vəkillər mənim qərarımı gözləyir. Mən Modern.az da, sizdə də, digər saytlar da da təkzib verdim. Biz hüquqi dövlətdə yaşayırıq. Mənim toxunulmazlıq statusum var. Qardaş, mənim 72 yaşım var, deputatam, illərin adamıyam, nəyimsə ola bilər də. Amma sən yaz ki, 4 şadlıq evi, benzindoldurma məntəqələri, 7 mağazası var... Nələr yazmırlar. Mən bunların hamısına təəssüflənirəm. Belə adamlara təəssüf edirəm ki, onun-bunun pulunu saymaqla yaşayırlar. Gedin, siz də hərəkət edin, çalışın!

***- Müxalifətdən, sizi tənqid edənlərdən təkliflər gözləyirsinizmi?***

- Mən iqtidar-müxalifət münasibətlərini necə görmək istəyirəm? Əgər müxalifət həqiqi müxalifətdirsə, orada söyüş söyən, təhqir edən, təhrif edən yoxdursa... İqtidar-müxalifət münasibətlərində baş prinsip əskikliklərin mübarizəsi və vəhdəti olmalıdır. Bu mübahisələrdə sonda xalq udmalıdır, xalqın xeyrinə nəsə olmalıdır. Sən hakimiyyətə gəlmək uğrunda mübarizə aparırsan, o başqa şeydir. Amma sən hakimiyyəti, dövləti dağıtmaq istəyirsənsə, o tamamilə başqa söhbətdir. Dünyada heç bir normal müxalifət hakimiyyəti dağıtmaq barədə fikirləşmir, əksinə, hakimiyyətə ideya verir, təklif verir. Bəli, mən böyük məmnuniyyətlə ideyaları qəbul edirəm. Amma bu, o demək deyil ki, sənin fikrin hökmən qəbul olunmalıdır, Quran ayəsi deyil ki. Gəl, fikir mübadiləsi edək və bu təkliflərə bütün hallarda baxacağıq.

***- Müxaliflərin bir-birinin ardınca atılan addımların niyə məhz indi işıq üzü gördüyü ilə bağlı öz arqumentləri var. Onlara cavabınız necədir: niyə məhz indi?***



**"Gəlin, Azərbaycanın uğurlarını görək, bu sabitliyi qoruyaq, xalqın, onun hər bir vətəndaşının güzəranının yaxşılaşmasına çalışan möhtərəm prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşək"**

- Bu addımlar əvvəldən planlaşdırılırdı. Yadınıza gəlirsə ötən ilin noyabrında, noyabrda biz parlament müzakirələrində nə qədər fikirlər səsləndirdik və büdcədən əlavə vəsait ayırdıq. Pensiyaçılar üçün 350 milyondan artıq vəsait ayrıldı, biz dedik ki, pensiyaların artması ilə bağlıdır. Yaxud səhiyyəyə əlavə maliyyə ayrıldı. Parlamentə daxil olan əvvəlki büdcə təqribən 700 milyon manat artımla təsdiq olundu.

***- Bu artımlardan sonra dövlət büdcəsinə yenidən baxıla bilərmi?***

- Həmişə büdcənin mədaxil-məxaricində olan fərqləri may ayında müzakirə edirik. Yenə də ola bilər. Möhtərəm prezidentimiz səsləndirdi, yanvar ayında büdcəyə nəzərdə tutduğumuzdan əlavə 105 milyon manat vəsait gəlib. Bu, o deməkdir ki, gələn vəsait yenə də xalqa qayıdır. Mart-aprel aylarında zaman-zaman bu addımlar atılacaq. İnşallah, martın sonunda, adamlar bu vəsaiti alanda bunun ləzzətini, dadını hiss edəcəklər. O pulu alanda görəcəklər ki, bu, nə qədər ciddi dəyişiklikdir. Yenə də ona təəssüf edirəm ki, bu qədər yaxşı işlərdən bir kəlmə də yazmayasan, ancaq sənin işin-gücün o olsun ki, onu-bunu müzakirə edəsən, özü də təhrif olunmuş qaydada, yalan, kütləyə oynayan məlumatlarla.

***- Hadı müəllim, sizdən niyə bu qədər çox yazırlar, heç fərqindəsinizmi?***

- Çünki mən bu qrup insanların içərisindəyəm, sosial durumu qismən ağır olan, sosial cəhətdən daha zəif qorunan qrupla işləyirəm və xalqın sözünü də, dövlətin gördüyü işləri də deyirəm. Siz görmüsünüz, bizim qanun layihələrinin müzakirəsində QHT-lərin rəhbərləri, nümayəndələri iştirak edir. Bu, nə deməkdir? Bu, xalqın səsidir də. Əslində təkcə mənim təhrif olunmuş ifadələrimdən söhbət getmir. Məqsəd nədir? Mən hakimiyyəti təmsil edirəm, o isə hakimiyyətin əleyhinədir. Ona görə belə iddialar bütün dövlət adından, onu müdafiə edənlər üçün səsləndirilir. Yalan, iftira, təhrif yazan həmin adamlar populizmlə məşğul olurlar. Bunlar nədən mənə daha çox ünvanlanır, mən ortaya gətirilirəm? Birinci, mənim çalışdığım sahə qıcıq doğuran sahədir. Gərək Hadı Rəcəbli durub desin ki, maaşlar "32 dəfə qalxmalıdır"... Mən belə şey deyə bilmərəm axı. Bəziləri bunu istəyir. Mənim dediklərimin arxasında elmi əsaslar, dünya təcrübəsi və şəxsi mənəviyyatım dayanır. Mən 15 yaşımda 45 manata fəhlə işləmişəm, məgər çətinlik nədir, bilmirəm? Mən bu qayğıların içində böyümüşəm, kasıb ailədən çıxmışam, 6 uşaq olmuşuq, əziyyətlə böyümüşük. Mənim anam müəllimə olub, atam sıravi qulluqçu olub. Onların kiçik maaşı ilə böyümüşük. Bir otaqda 6 uşaq yatmışıq. Zaman gəlib, uşaqlar hamısı sağlam böyüyüb, təhsil alıb. Anamın ən böyük məsləhəti bu olub: dünya kasıblıq çevrəsindən çıxmağın iki yolunu tapıb, başqa yolu yoxdur. Bir yol təhsil, savaddır, ikinci yol sağlamlıq, idman əzmidir, əzmkarlıqdır. Bu iki keyfiyyət insanda olanda adam ucala bilir. Görün nə qədər uşaqlar var, heç kimin qohumu deyillər, gör necə önə çıxıblar. Mənim arxamda kim olub? Heç kim.

***- Deyirsiniz ki, sizin hansısa ifadəniz, bütün gördüyünüz yaxşı işlər arxa plana keçirilir, hədəfə çıxarılırsınız. Sizcə, burada məqsəd nədir?***

- Bunlar məni yox, cəmiyyəti qıcıqlandırmaq üçün belə iftiralar yayırlar. Bu, təkcə mənim yox, hakimiyyətin əleyhinə olan kampaniyadır. Təkcə mənimmi əleyhimə aparırlar bu kampaniyanı? Yox! İqtidarı təmsil edən, sözünü deyən hər bir siyasətçinin, məmurun ünvanına aparırlar bu yalan kampaniyasını! Daha adları sadalamadan demirəm kimlərin, kimlərin əleyhinə. Nə qədər yalan, iftira yazmaq olar. Yazılanların böyük əksəriyyəti yalandır! Mən 50 ildir peşəkar siyasətdəyəm, komsomolun ikinci katibi, sonra birinci katibi, icraiyyə komitəsinin sədri, birinci katib kimi çalışmışam. Bu, mənim həyat yolumdur. İndi gəlib bir uşaq mənim şəklimi qoyur internetdə, başlayır ünvanıma söyüş söydürməyə. Sən axı saytında təhqiri qoymamalısan. Mən bunları məhkəməyə vermək istəmirəm. Onların hamısını sivil, söyüşsüz, yalansız, təhrifsiz siyasi mübarizəyə çağırıram, heç olmasa Allahdan qorxun, deyirəm. Mən dediyim, açıq-aydın görünən bu qədər yaxşı işlərdən yazmırlar, amma pis işdən, hansısa nöqsandan, deyək ki, qanun pozuntularından və digər çatışmazlıqlardan on dənə də üstünə qoyub yazırlar.

Qafqazda əmin-amanlığın mərkəzi Azərbaycan, təminatçısı İlham Əliyevdir, stabilliyin, sosial sabitliyin mahiyyətində Azərbaycan prezidentinin siyasəti dayanır. Gəlin Azərbaycanın uğurlarını görək, bu sabitliyi qoruyaq, xalqın, onun hər bir vətəndaşının güzəranının yaxşılaşmasına çalışan möhtərəm prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşək.

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Nobel ödülü haqqında hədis

Zamin HACI
zaminhaci@gmail.com

"Mən özüm görürəm ki, siz avam adamsınız, yazıq adamsınız, heyvan adamsınız və sizin avamlığınız və heyvanlığınız bundan isbat olunur ki, nəçərnik buyuranı başa düşmədiniz, lazım gəldi ki, mən sizləri başa salam"

***(Cəlil Məmmədquluzadə, "Danabaş kəndinin məktəbi")***

**Görkəmli təhsil ekspertimiz Etibar Əliyev deyir ki, orta məktəb dərsliklərinə Nobel mükafatı qalibləri haqda bilgilər salınmalıdır. Doğrudan da ədəbiyyatdan tutmuş fizikaya, kimyadan sülh ödülünə qədər müxtəlif nominasiyalarda Nobel almış insanlar var ki, onların həyatı, kəşfləri, kitabları uşaqlara öyrədilsə sonucda hamımıza xeyirdir. Vətənə, millətə, Sakaryaya - necə deyərlər. Ancaq ilk baxışdan belədir. Bizim uşaqların saf beynini Nobel ödülü alanlarla, ümumiyyətlə, dünya miqyaslı şəxsiyyətlərlə zibilləmək lazım deyildir. Uşaq həyatda başını salamat eləmək üçün nəyi öyrənsə bəsidir? Mən bəzi sərbəst mövzuları yazıram: "8 martın müəllimələrin həyatında ictimai-siyasi rolu", "Məktəb direktorunun bələdiyyə seçkilərində qolu", "Maarif müdirinin təhsil kassasına yolu" və sairə. O cümlədən uşaqlar başını aşağı salıb yaşamağı, özündən vəzifəcə böyüyə yalmanmaq, vəzifəsi olmayan aşağı kateqoriya adamları qapmaq, evlənməyin və özün kimi mənasız çoxhüceyrəli canlılar törətməyin kainatdakı əhəmiyyəti mövzularını öyrənməyə borcludur. Yoxsa sən get 3-4 gün qabaq ölən fizik alim Jores Alfyorov-un yarımkeçiricilər üzrə nəyi kəşf elədiyini, Boris Pasternak-ın hansı romanı yazdığını, nə bilim, 14-cü Dalay Lama-nın Nobel sülh ödülünü nəçənci ildə və nəyə görə aldığını bizim sarıdimdik, burnufırtıqlı cocuqlara öyrət - bunu Allah götürməz.**

Allah demişkən, dinin tədrisi mətkəblərimizdə olduqca qəşəng formalarda aparılır, heç ruhumuz incimir. Hansı kitabı açsan, orada cürbəcür hədislərə, rəvayətlərə, əfsanələrə rast gəlirsən. Nəticədə güman edə bilərik ki, biz özümüz cəhənnəmdə yansaq da, uşaqlarımız cənnətdə kef çəkəcəkdir. Çünki biz uşaq olanda Maksim Qorki, Vladimir Mayakovski, Lev Tolstoy, nə bilim, Cek London və Viktor Hüqo kimi kafirlərin cızmaqaralarını oxuyub əzbərlərdik. İndiki uşaqlar isə Allah yolunda tərbiyə alırlar.

Misal üçün, açıram 4-cü siniflərin "Azərbaycan dili" dərsliyini. 2015-ci ildə çapdan çıxan bu kitablar kitabını Rafiq İsmayılovdan Xanım Qasımovaya qədər 4 adam birlikdə, çətinliklə yazıb doldurubdur. Kitabın hər səhifəsindən hikmət damır. Açan kimi düşdük 112-ci səhifəyə. Burda Ərəbistandakı Zəmzəm suyunun möcüzələrindən xeyli yazılıbdır. Bağlayırıq, bu dəfə açırıq və düşürük 185-ci səhifəyə. "Dəvə ilə ver" adlı yarıfəlsəfi, yarıyumoristik hədis bizi yenə Ərəbistana aparır. Deyir, Həzrət Əli bir gün xurma yüklü dəvə ilə gəlirmiş, dilənçi ondan xurma istəyir. Həzrət Əli köməkçisi Qənbərə deyir, buna xurma ver. Qənbər deyir xurma çuvaldadır, ağam. Həzrət Əli deyir çuvalla ver. Köməkçi deyir axı çuval dəvənin belindədir. Həzrət deyir, dəvə ilə ver. Qənbər əmri yerinə yetirir, çıxıb gedirlər. İndi, sizcə, bizim uşaqlar bundan nə öyrənəcəklər? Dilənçi səndən 20 qəpik istəsə, maşının varsa, onu da dilənçiyə verməlisən. Gör nə qədər humanizm aşılanır! Nə isə, bağlayıb təzədən açaq. Bu dəfə 136-cı səhifəni açdıq. Orada iki dost uşaqdan danışır. Bunlardan biri Narxozu qurtarıb bankda işləyir, pullu oğlan olur. O biri isə Misirdə mollalıq oxuyub gəlir, kəndin axundu işləyir. Narxozu qurtaran bir gün eşidir ki, molla bunun qeybətini edir. Gəlir mollanı tapır, soruşur niyə belə demisən, molla deyir yalandır, mən əksinə, səni tərifləyirəm: "Sən xeyirxah adamsan, körpü tikmisən, su çəkmisən, camaata yardım edir, istedadlı uşaqları oxudursan. Ancaq bir məscid də tiksən yaxşı olar". Bankir də söz verir məscid tikəcək. Vəssalam, bununla da fısqırıq əhvalatımız bitir.

Lakin əsərdə bir neçə siyasi səhvə yol verilib, düşünürəm, Təhsil Nazirliyi buna diqqətlə yanaşmalı, kitabı yazan dördlüyün qulağını dartıb, küncə qoymalıdır. İlk növbədə bu cümləyə diqqət edək: "Ələsgər isə Misirə gedib ilahiyyat elmini öyrənməyə başladı". Bəyəm nazirlik bilmir ki, bizdə xaricdə din oxuyanların axund işləməsi qadağandır? Özümüzdə, namxuda, min cür dövlət dini məktəbləri vardır, hətta istəsən mollaya dövlət büdcəsindən maşın və təsbeh verirk. İkincisi, iqtisadiyyatı oxuyan uşağın bankir olması istər-istəməz yadımıza Cahangir Hacıyevi, onun Londonda 150 milyon dollarlıq bazarlıq edən əyalını, külfətini salır. Kitabın gələn nəşrlərində bunu ayrı iqtisadi peşəyə yönəldin, misal üçün, fermer olub pambıq əksin, camaata bayram yarmarkası açıb armud satsın, nə bilim, neft çıxartsın, qaz kəməri çəksin... Bankirin səxavətli olması, messenatlığı pis çıxır. Üçüncüsü, elə bu yoldaşın kəndə körpü çəkməsi, uşaqları oxutdurması və sairə sanki işarə vurur bizdə regionların inkişafı dövlət proqramı iflasa uğrayıbdır. Yalandır. Ermənistan boşalır, bundan yaz.

---

**Bir neçə gün sonra Ermənistanda "məxməri inqilab"ın 10 ayı tamam olacaq. Aylar ötdükcə də təbii ki, düşmən ölkədə, onun cəmiyyətində əsas bir sual getdikcə daha bərkdən səslənəcək: "İnqilab erməni xalqına nə verdi, vəd olunan rifah yaxınlaşırmı, olacaqmı, yoxsa?"**




# Nikolun böyük yalanı çıxdı - "Ermənistanda iqtisadi möcüzə olmayacaq!.."

## Dünyanın ən nüfuzu maliyyə mərkəzlərindən ermənilərə bəd xəbər: "Bu ölkədə sıçrayışlı inkişaf haqda vədlər əsassızdır"; erməni nəşri: "Cəmiyyət anlamağa başlayıb ki, Paşinyanın "sehrli çubuğu" yoxdur..."

Sualın cavabı əslində indi də aydındır. Ermənistanda iqtisadi möcüzə olmayacaq, gözlənilmir. Çünki hakimiyyət dəyişsə də, hələ ki işğalçı ölkə ətrafında situasiya, ən əsası, cəmiyyəti yönəldənlərin qafaları dəyişməyib. Ermənistanın yeni rəhbərliyi də "buludlarda uçur", aşağı enməyə tələsmir. Bunu təkcə biz demirik.

*****

"Nikol Paşinyanın iqtisadiyyatın sıçrayışlı və inqilabi inkişafı barədə verdiyi bəyanata rəğmən, beynəlxalq maliyyə təşkilatları yaxın illərdə Ermənistanda heç bir iqtisadi möcüzə vəd eləmirlər". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə "168 jam" qəzetində dünən getmiş baş məqalədə deyilir.

**Məqalədə daha sonra N.Paşinyanın böyük yalanı üzə çıxarılır və deyilir:** "Həmin təşkilatların proqnozlarına əsasən, orta müddətli perspektivdə bizim ölkəmizin iqtisadiyyatı zəif inkişaf zonasında olacaq və bundan artıq heç nə olmayacaq. Söhbət vur-tut 4.3-5 faiz artımdan gedir - hansını ki, hətta ən böyük istəklə belə "inqilabi" adlandırmaq qəliz məsələdir. Belə inkişaf fonunda şübhəsiz ki, nə iqtisadiyyatda, nə də sosial sferada ciddi gözləntilərə ümid eləmək mənasızdır. Və hökumət nə qədər bəyan eləsə də ki, o, inklüziv iqtisadi inkişaf təmin eləmək niyyətindədir, 4-5% cəmiyyətin sosial durumunu yaxşılaşdıracaq səviyyədə deyil. Ona görə də qat-qat yüksək - 7-7.5 illik artım lazımdır - hansı göstəricini isə beynəlxalq strukturlar Ermənistan üçün real hesab eləmirlər. O zaman kimə inanaq - Nilol Paşinyana, yoxsa nüfuzlu beynəlxalq qurumlara? Bu, o deməkdir ki, Nikol Paşinyanın əvvəllər vəd elədiyi sıçrayışlı iqtisadi inkişaf əvəzinə ölkədə öncəki illərlə müqayisədə iqtisad inkişaf tempinin zəifləməsi gözlənilir. Xatırladaq ki, 2017-ci ildə Ermənistanda ÜDM artımı 7.5, keçən il isə 12.7% faiz olub".

**Qəzet ardınca xarici sərmayələr məsələsinə toxunub:** "Əslində xarici maliyyə axınları ilə bağlı da problemlər var. Bu problemlər özünü ötən ilin sonundan göstərməyə başlayıb. Ölkəyə özəl transfertlərin azalması ayrı-ayrı aylarda müşahidə edilib və daha bir həyəcanlı halla müşayiət olunub: Ermənistandan maliyyə vəsaitlərinin çıxarılması sürətlənib. Bu isə iqtisadiyyat üçün, ölkənin maliyyə sektoru üçün ciddi risk deməkdir. Buna qarşılıq, xaricdən maliyyə axını yoxdur".

**Məqalə bədbin notlarla bitir:** "İstənilən halda, Nikol Paşinyanın erməni cəmiyyətinə və iqtisadiyyatla bağlı verdiyi vədlərə rəğmən, açıq-aşkardır ki, bu iki avtoritetli beynəlxalq struktur Ermənistanda elan olunan sıçrayışlı iqtisadi inkişafa və iqtisadi inqilaba inanmır. Bu isə artıq yaxşı şey deyil. Cəmiyyət artıq dərk eləməyə başlayıb ki, ölkədə iqtisadi və sosial situasiyanı dəyişmək üçün Paşinyanın heç bir "sehrli çubuğu" yoxdur".

*****

Aydın məsələdir ki, "Azərbaycan bir qarış da torpaq qaytarmayacağıq!", "Mən Dağlıq Qarabağın adından danışa bilmərəm" kimi populist, müharibə qoxusu verən və erməni xalqına yaxşı heç nə vəd etməyən bəyanatlarla uzağa getmək, xalqı rifaha qovuşdurmaq mümkün deyil. Olsaydı, bunu Serj Sərkisyan, Robert Köçəryan 20 ildə edərdilər. Ermənistanda hakimiyyət başında kim olur-olsun, erməni xalqının xoşbəxtliyi Qarabağ konfliktinin radikal həllindən, işğal siyasətinə və Türkiyəyə qarşı qondarma soyqırım iddiasına son verməkdən keçir.

Bu arada ABŞ-dan Ermənistanın Paşinyana işğal altındakı əraziləri Azərbaycana qaytarmaq çağırışı edilib. Belə ki, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) məsləhətçisi, amerikalı politoloq Ray Salvatore Cenninqs Paşinyana Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış separatçı rejimə qarşı cinayət işini açmağa çağırıb (Publik.az).

**Amerikalı politoloq qeyd edib ki, Qarabağda "qalaqurma" Paşinyana danışıqlar masasında elastiklik imkanı verəcək.** "Ermənistan rəhbərliyi Qarabağdakı qüvvələri oyundan kənarlaşdırmalı və onlara qarşı cinayət işi açmalıdır. Qarabağda "qalaqurma" siyasəti Ermənistan rəhbərliyinə münaqişənin həlli üçün müzakirələrin aparıldığı danışıqlar masasında elastiklik imkanı tanıyacaq. Paşinyan müəyyən addımları atdı. Artıq etibarın möhkəmləndirilməsi mexanizmlərinin reallaşdırılmasına hazırlıq haqqında danışırlar", - deyə Cenninqs vurğulayıb.

**Onun fikrincə, bu addımlar Nikol Paşinyana müəyyən dividendlər gətirə bilər:** "Ərazilərin qaytarılması Ermənistanın xeyrinə olacaq. Azərbaycan bunun qarşılığında Ermənistana bir sıra beynəlxalq təşəbbüslərə, misal üçün Bakı-Tiflis-Qars dəmir yoluna qoşulmaq icazəsi verəcək. Bundan başqa, ABŞ-ın Ermənistanın yeni hökumətinə etibarının möhkəmlənməsi onun "Şərq və Qərb" arasında öz münasibətlərinin tənzimlənməsindən asılı olacaq".

*****

"Yeni Müsavat" xatırladır ki, bundan qabaq - ötən ilin oktyabrında ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Bolton İrəvanda olarkən Nikol Paşinyana açıq mətnlə bildirmişdi ki, Ermənistan Rusiyadan qurtuluş və inkişaf istəyirsə, o zaman ilk növbədə qonşuları Türkiyə və Azərbaycanla əlaqələri normallaşdırmaq və Qarabağ məsələsində həlledici addımlar atmaq barədə düşünməlidir.

Bundan bir qədər sonra prezident Donald Trampın özünün Paşinyanın ikinci dəfə baş nazir təyin edilməsi ilə bağlı göndərdiyi təbrik məktubunda (yanvar 2019 ) oxşar fikir qırmızı xətt kimi keçmiş, "Ermənistan qonşularla əlaqələri qaydaya salmayınca təhlükəsizlik və inkişaf içində ola bilməyəcək", - deyə vurğulanmışdı. Ağ Ev başçısı onu da qeyd eləmişdi ki, "ABŞ-Ermənistan münasibətlərinin inkişafı üçün Qarabağ münaqişəsinin həlli vacibdir".

**Yolu bəlli.**

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# İsveçrə və Azərbaycan inkişaf üzrə əməkdaşlığın 20-ci ildönümünü qeyd edir

## Azərbaycanla İsveçrə arasında sıx əlaqələrin izahı - dəqiq faktlar

**İsveçrənin Azərbaycandakı səfirliyi musavat.com-a məqalə yollayıb. Məqalə mühüm və tarixi bir hadisəyə həsr olunub. Həmin məqaləni təqdim edirik:**



- Bu il 20 ildir ki, İsveçrənin İnkişaf üzrə Əməkdaşlığı Azərbaycana fəal şəkildə cəlb olunub. Bu 20 il ərzində tərəfdaşlıq və əməkdaşlıq bizim ölkələrimizi daha da yaxın edib. Bu gün ölkələrimiz arasında çox gözəl siyasi və iqtisadi əməkdaşlıq mövcuddur.

Bu əməkdaşlığın başlanğıcında, 1999-cu ildə İsveçrə qaçqın və məcburi köçkünlərə kömək məqsədilə Azərbaycanı humanitar yardımla dəstəkləmişdi. Həmin illərdə qaçqın və məcburi köçkünlərin hələ də ciddi yardıma ehtiyacı vardı ki, bu yardım da Azərbaycan hökuməti və İsveçrənin İnkişaf və Əməkdaşlıq Agentliyi də daxil olmaqla, müxtəlif beynəlxalq təşkilatlar vasitəsilə təmin olunurdu.

Azərbaycanda iqtisadi vəziyyət, eləcə də qaçqın və məcburi köçkünlərin vəziyyəti yaxşılaşdıqca sonrakı illərdə İsveçrə göstərdiyi dəstəyin hədəflərini dəyişdi. Bundan sonra İsveçrənin Azərbaycanda həyata keçirdiyi yardımlar dəyər zəncirləri və infrastrukturun inkişafına, daha dəqiq desək, humanitar yardımdan uzunmüddətli inkişaf ehtiyaclarına yönəldi. İsveçrənin maliyyələşdirdiyi layihələr, məsələn, İsmayıllı və Qəbələdə turizmin inkişafına və yaxud Naxçıvan Muxtar Respublikasının ərazisi boyunca su infrastrukturunun bərpasına öz töhfəsini verdi. Daha sonra İsveçrənin maliyyə dəstəyi ilə Bərdə, Tərtər, Ağdam, Ağcabədi və Beyləqan da daxil olmaqla, Azərbaycanın mərkəzində kənd yerlərinin inkişafı layihələri həyata keçirildi.

Azərbaycan iqtisadiyyatı daha da inkişaf etdikcə İsveçrə, əsasən özəl sektorun çərçivə şərtlərini daha da yaxşılaşdırmaq və makroiqtisadi sahələrə və maliyyə sektoruna texniki dəstək verməklə öz dəstəyini daha çox texniki aspektlərə yönəltdi. Bu həm də o vaxt idi ki, İsveçrənin iqtisadi əməkdaşlıq agentliyi, İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO), 2004-cü ildə Azərbaycanda öz ofisini açmaqla özünün bu ölkədə fiziki mövcudluğuna başladı.




İsveçrənin Azərbaycanla artan əməkdaşlığı və ölkəyə dəstəyi bu tərəfdaşlığın hüquqi baza üzərinə qoyulmasını şərtləndirirdi və beləliklə, 23 fevral 2006-cı ildə iki hökumət arasında Texniki, Maliyyə və Humanitar Əməkdaşlıq üzrə Saziş imzalandı. Bu saziş bu günədək qüvvədədir.

Bugünkü yüksək texniki iqtisadi əməkdaşlıq etibarlı tərəfdaşlıq və qarşılıqlı inamla xarakterizə olunur. Texniki dəstək icitimai maliyyə idarəçiliyi, hökumət statistikasından tutmuş makroiqtisadi modelləşdirməyə qədər mürəkkəb makroiqtisadi islahatlara yönəlib. İsveçrə həm də uzun müddətdir ki, Azərbaycanda maliyyə sektorunun inkişafını dəstəkləyir. Bu dəstək əsasən lizinq, Özəl Kredit Bürosu, daşınar əmlakın yüklülüyünün tətbiqi və ən son olaraq, mobil pul həllərini nəzərdə tutan maliyyə infrastrukturu məsələlərini əhatə edir. Bütün bunlar yerli hakimiyyətlə sıx dialoq vasitəsilə həyata keçirilir və İsveçrə Azərbaycanı özünün iqtisadiyyatını şaxələndirmək və islahatlar aparmaq məqsədinə çatmaq üçün ciddi şəkildə dəstəkləyir.

### İsveçrənin Azərbaycana dəstəyi rəqəmlərdə

Son 20 ildə İsveçrə hökuməti Azərbaycana 91 milyon İsveçrə frankı məbləğində yardım ayırmışdır ki, bu da 154 milyon AZN-ə bərabərdir. Yardımın böyük hissəsi SECO (61 milyon isveçrə frankı) və SDC (29 milyon isveçrə frankı) tərəfindən verilmiş, İsveçrədən Azərbaycana ayrılan digər yardımlar təxminən 1.4 milyon İsveçrə frankı təşkil edir. Qeyd etmək lazımdır ki, İsveçrə Milli Bankı da Azərbaycanın Mərkəzi Bankına texniki dəstək verir. Bundan başqa, İsveçrənin Böyüyən Bazarlar üzrə İnvestisiya Fondunun Azərbaycana qoyduğu investisiyalar 16 milyon İsveçrə frankı təşkil edir.

### Bizim icraçı tərəfdaşlar

İlk illər İsveçrə humanitar yardımı əsasən beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları (QHT) vasitəsilə çatdırırdı. 2015-ci ilədək inkişaf layihələrinin əksəriyyəti beynəlxalq QHT-lər vasitəsilə həyata keçirilib. SECO-nun texniki yardımı adətən Dünya Bankı Qrupu (Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD) və Beynəlxalq Maliyyə Korporasiyası (İFC), Beynəlxalq Valyuta Fondu kimi qlobal təsisatlar, regional inkişaf bankları, Cenevrə Məzun Universiteti kimi geniş şəbəkəli universitetlərin təcrübələrindən faydalanır. Əlavə olaraq, SECO öz yardımlarını həmçinin yüksək ixtisaslı məsləhətçilər və yaxud yerli universitetlərlə (məsələn, Xəzər Universiteti) əməkdaşlıq vasitəsilə də həyata keçirir. İsveçrənin beynəlxalq əməkdaşlıq missiyası kiçik layihələr vasitəsilə dəstəklədiyi sivil cəmiyyət və yerli mədəniyyət və incəsənət nümayəndələri ilə də yaxın əlaqələr saxlayır.

### Digər faktlar - bilirdinizmi?

Azərbaycanla İsveçrə arasında sıx əlaqələrin izahı nədir? 1992-ci ildə Qırğızıstan, Polşa, Serbiya, Tacikistan və Türkmənistanla birlikdə hər iki ölkə iki Bretton Woods İnstitutuna - Dünya Bankı və Beynəlxalq Valyuta Fonduna qoşuldu. Bu ölkələr həmin institutlarda İsveçrənin rəhbərlik edəcəyi yeni bir səsvermə qrupu yaratmağa razılaşdılar. Bu günədək siz Vaşinqtonda Dünya Bankı və Beynəlxalq Valyuta Fondunda bizim ofislərimizi görə bilərsiniz. İsveçrə bu beynəlxalq maliyyə təşkilatlarında Azərbaycanın və digər qrup üzvlərinin (bura 2010-cu ildə daxil olmuş Qazaxstan da daxildir) maraqlarını qorumaqda davam edir.

İsveçrə Əməkdaşlıq Təşkilatı (İƏT) Cənubi Qafqazda fəaliyyətinə 1999-cu ildə başlayıb və Tiflisdəki ofisindən Cənubi Qafqaz respublikalarının üçünü də əhatə edirdi. Bu gün hər üç ölkədə regional ofis Tiflisdə olmaq şərtilə İsveçrə Əməkdaşlıq Ofisləri var. Cənubi Qafqazda İsveçrənin beynəlxalq əməkdaşlığı regional strategiya ilə nizamlanır və layihələrin çoxu mübadilə və qarşılıqlı öyrənməyə kömək etməklə iki, ya üç ölkənin hər birində həyata keçirilir.

İsveçrənin Azərbaycandakı əməkdaşlıq fəaliyyətləri İçərişəhərdə yerləşən İsveçrə səfirliyinin bir hissəsi olan Bakıdakı İsveçrə Əməkdaşlıq Təşkilatı (İƏT) tərəfindən reallaşdırılır. 2007-ci ilin axırlarında açılmış və İsveçrəni Azərbaycanda və Türkmənistanda təmsil edən Bakıdakı səfirlik konsulluq məsələləri də daxil olmaqla, bütün diplomatik xidmətləri göstərir.

❑ **İsveçrənin Azərbaycandakı səfirliyi**

---

# Daha 27 il gözləməyə dəyərmi?..



**Hüseynbala SƏLİMOV**

**Əslində yubiley tarixi deyildi bu - Azərbaycanın BMT-yə üzv olmasından hələlik 27 il keçibdir. Odur ki, başqa bir vaxt bizlərdən kimsə bu mövzuya ya təsadüfən, ya da BMT- nin bilavasitə özü ilə bağlı bu və ya digər məsələni araşdırmaq üçün toxuna bilərdi.**

Amma yenə də azərbaycanlı müəlliflərin predmetə müraciət etməsində bir təsadüf görmürük, əksinə, bəlkə də belə müraciətlər daha çox olmalıdır. O səbəbdən yox ki, qanadları budanmış mətbuatımızın nəyisə BMT baş katibinin nəzər - diqqətinə çatdıracağını düşünürük - yox, bunu zənn edəcək dərəcədə də sadəlövh deyilik, amma hamısı olmasa da mümkündür ki, nələrsə gedib bizim öz siyasətçilərimizin və diplomatlarımızın qulağına çatar.

İndiki vaxtda bizə də elə bu maraqlıdır ki, bir daha görək ki, daha 27 il gözləməyinə dəyər, yoxsa problemin fərqli həll yolların aramaq lazımdı?

Əvvəlcə onu deyim ki, şəxsən mənə 10 il bundan əvvəl desəydilər ki, BMT gözündən düşüb o qədər adiləşəcək, gərəksizləşəcək ki, hətta onun baş katibinin adını belə yadda saxlamaq üçün özünə əziyyət verməyəcəksən - doğrusu, mən buna inanmazdım. Amma belədir, mən bu adamın tam adını - ismini bilmirəm, necə ki, o, mənim adımı bilmir.

Odur ki, bizimlə baş katib arasında tamam simmetrik münasibətlər yaranıb, nə o, məni tanıyır, nə də mən onu. Amma ortada mübahisəli bir məqam var ki, bu da cənab baş katibin rəhbərlik etdiyi təşkilatın qəbul etdiyi dörd qətnamədir: bu mənada BMT baş katibi tək mənə yox, azı on milyon azərbaycanlıya borcludur, çünki 27 ildir ki, bu qətnamənin tələb və təklifləri kağız üstündə qalıbdır...

Elə bu səbəbdən mən BMT və onun dünyada yeri, bu təşkilatın qərar qəbuletmə mexanizmlərinin effektivliyi, onun hansı dövlətlərdən daha çox asılı olması, daimi üzvlük institutunun on illər ərzində yaratdığı bütün fitnə - fəsadlar haqqında danışmayacam - yox, bunlar haqqında artıq dörd-beş min işarəlik yazı yox, bütöv bir kitab yazmaq lazımdır. O üzdən də mənim bu günlük "missiya"m bir az başqadır.

Dağlıq Qarabağ problemində yenə də gah Qazan, gah da Madrid prinsipləri deyilən təkliflərin əlində girinc qalmışıq - nə irəli, nə də geri gedə bilmirik. Ən əsası da odur ki, istər bu prinsiplərə, istərsə də bundan əvvəlkilərə baxanda, ən başlıcası da təxminən 26 il bundan əvvəl BMT həzrətlərinin qəbul etdiyi dörd sənədi yada salanda görürsən ki, bunların əsasında hansısa təməl müstəvi dayanmır.

Bu müstəvi statusunda həmin dörd qətnamə, BMT-nin nizamnaməsi və beynəlxalq hüquq çıxış etməli idi - bəli, hüquq var, BMT nizamnaməsində təcavüzlə bağlı müddəalar var və nəhayət, Dağlıq Qarabağ məsələsilə bağlı dörd qətnamə var ki, işğal olunmuş rayonların qeyd-şərtsiz azad olunmasını tələb edir. Amma reallıqda nə baş verir və biz niyə "ölü nöqtə"dən tərpənə bilmirik?

Səbəbi budur ki, BMT "şərtsiz" deyibdir, amma necə illərdir ki, Ermənistan şərt irəli sürərək "Qarabağı tanı!" deyir və əvəzində də kənar rayonları qaytaracağını vəd edir, özü də yenə əlavə bir şərtlə ki, bu rayonlar qaytarılacağı təqdirdə belə demilitarizə olunmalı və Azərbaycan öz qanuni ərazilərində heç bir hərbi texnika və ya silahlı qüvvə saxlamamalıdır.

Bəli, belə bir absurd tələb var: odur ki, belə bir vəziyyətdə bizim insanların "BMT, yoxsa BMP?" soruşması nə təsadüf sayılmalıdı, nə də məntiqsizlik, əksinə 27 il öz qızıl çağlarını dədə- baba yurdunun nə vaxt qaytarılacağını gözləməyə həsr edən bir nəslin nəhayət ki, bu sualı qoyması tamam məntiqli bir sonluqdur...

Məntiqsizliyi isə tamam başqa ünvanda, bəlkə də Nyu-Yorkdakı uca binanın (inanırsız, artıq BMT-nin harada yerləşdiyini də unutmuşam!) kabinet və dəhlizlərində, orada qəbul olunan qərarlarda və ən başlıcası da bu qərarların taleyində axtarmaq lazımdır.

Budur, Nikol müəllim də daha bir şərt irəli sürüb: o vaxta qədərki danışıqlar formatı dəyişməyibdir mövcud kontaktları rəsmi danışıqlar kimi qəbul etmək olmaz...

Bəli, yenə də şərt, daha bir şərt... Özü də kimin tərfindən? Dılğır bir ölkənin dılğır siyasətçisi tərəfindən! Belə şəraitdə "BMT, yoxsa BMP?" deməyəsən, bəs nə edəsən?..

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019

# "Fəxrəddin Aboszodə siyasi məhbus ola bilməz"

**Ermənistanın xüsusi xidmət orqanlarının agenti olan Fəxrəddin Abbasov (özünü Aboszodə kimi qələmə verir-red.) ötən həftə Rusiyadan Azərbaycana deport olundu və Azərbaycan DTX-si onu hava limanında həbs etdi. Çünki Fəxrəddin Abbasov Azərbaycana qarşı törətdiyi cinayətlərə görə 2018-ci ilin yayında onun barəsində cinayət işi başlanmış və Səbayel Rayon Məhkəməsinin qərarı ilə onun barəsində həbs-qətimkan tədbiri seçilmişdi. Onun barəsində beynəlxalq axtarış elan edilmişdi. 2018-ci ilin sentyabrında isə o, Rusiyada saxlanılmışdı.**

Təbii ki, xəyanətkar əməllərinə görə Fəxrəddin Abbasov qanun qarşısında cavab verməlidir. Hər kəs onu vətən xaini kimi tanıyır. Lakin xaricdəki bir-iki havadarları öz maddi və fərdi maraqları naminə onun müdafiəsinə qalxmağa çalışır, onu az qala "siyasi məhbus" elan edirlər.

Vətənə xəyanət etdiyinə görə Azərbaycan vətəndaşlığından çıxarılan və Hollandiyada separatçılıqla məşğul olan, Ermənistanın agentinə çevrilən Ələkrəm Hümmətov artıq özünün bir tayı olan Fəxrəddin Aboszodənin müdafiəsinə qalxıb. O da bəllidir ki, ötənlərdə bəzi beynəlxalq, ermənipərəst təşkilatlar Ə.Hümbətovu, habelə Azərbaycanda hətta terror törətdiyinə görə həbs edilən şəxsi belə "siyasi məhbus" elan etmişdilər. Bu, hüquq müdafiəçiləri arasında ciddi mübahisələr doğurmuşdu.

Anti-Azərbaycan bəyanatları ilə tanınan, erməni agenti Fəxrəddin Abbasovu da "siyasi məhbus" siyahısına salmağa cəhdlər edilə bilərmi?







**Səadət Bənəniyarlı:** "Biz onu siyasi məhbus kimi tanımırıq"
**Nəzakət Məmmədova:** "Agentlərə də dərs olsun ki..."
**Qənirə Paşayeva:** "Onun kimi satqınlar heç zaman məqsədlərinə çata bilməyəcəklər"

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı "Yeni Müsavat"a bildirdi ki, hazırda istintaq gedir:** "Hüquqi baxımdan gözləmək lazımdır ki, istintaqın yekunu necə olacaq. Ona görə bu suala tez cavab vermək olmaz. Amma biz onu "siyasi məhbus" kimi tanımırıq. Ümumiyyətlə, o demək deyil ki, siyasi məhbus kimi tanınanların hamısı azadlığa buraxılırlar".

**Politoloq Nəzakət Məmmədovanın sözlərinə görə, onun adına ilk dəfə Ermənistanın "Voskanapat" saytında rast gəlib:** "Azərbaycana qarşı nifrinlər yağdıran bu saytda mütəmadi olaraq onun yalan, iftira, hədyanlarla dolu yazıları çap olunurdu.

Azərbaycan torpağında doğulub, onun havasını udmuş, suyunu içmiş bu xainin ermənidən betər ermənilik etməsi dəhşətli idi.

Yəqin ki, vicdan hissini itirmiş olmasaydı, bu nalayiq addımlarının Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olmuş minlərlə talış övladının ruhunu incitdiyini anlayardı.

Adıçəkilən saytın rəhbəri Qarabağda bizim hamımıza - Azərbaycan xalqına, o cümlədən onun ayrılmaz bir parçası olan talışlara güllə atan, "Miatsum" adlı mənfur separatçı hərəkatın sədr müavini olmuş, F.Abbasovun yaxın dostu, F.Abbaszadə kimi Azərbaycanda doğulub, sonra ona xəyanət edən Levon Melik Şahnazaryan idi.

Görünür, "Miatsum"un və "Talış Muğan Respublikası"nın idarə olunduğu eyni mərkəz Abbasovu Şahnazaryanla Azərbaycana qarşı informasiya cəbhəsində vahid səngərdə birləşməyə vadar etmişdi.

Onun agent fəaliyyəti "Voskanapat"la əməkdaşlıq etməklə bitmir. Ermənistanın "Yerkramas", "Panorama", "HayasaNews" və s. saytlarında onunla müsahibələr çap olunub, məqalələrlə çıxış edib.

1995-ci ildə Rusiyaya gedən Abbasov Sankt-Peterburqda Azərbaycan əleyhinə qəzet nəşr edib, 2005-ci ildə Ermənistanda təxribatçı konfrans təşkil olunub.

Həm Rusiyada, həm Avropada gizlənən bəzi xəyanətkarlara, agentlərə də dərs olsun ki, siyasi sığınacaq almaqla, yaxud qaçıb gizlənməklə iş bitmir".

**Deputat Qənirə Paşayeva isə facebookda qeyd edib ki, F.Abbasovun layiq olduğu cəzanı alacağına inanır:** "Pəncəli Teymurov kimi öz toy günündə özünə Vətənimiz üçün şəhid ola bilməyi diləyən qəhrəman oğulların ruhunu sızladırdı Fəxrəddin Abbasov adlı vətən xaininin, satqının əməlləri.

Onun layiq olduğu cəzanı alması Vətənimizi bölmək, parçalamaq, zəiflətmək niyyətində olub, xarici qüvvələrə çalışanlara, onların arxasında dayananlara da böyük bir dərs olacaq.

Ziyalılarımızın bu mövqeyi də onlara ciddi bir dərs olacaq. Hər dəfə cənub bölgəmizə səfər edəndə insanlarımızda Vətənimizin bütövlüyünün qorunması, birliyimiz, Qarabağı azad etmək ruhunu, düşüncəsini görməkdən çox məmun oluram.

Fəxrəddin Abbasov kimi satqınlar heç zaman məqsədlərinə çata bilməyəcəklər. Bu Vətəni, bu milləti heç kim parçalaya bilməz! Biz birlikdə güclü Azərbaycanıq!"

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidməti (DSX) dövlət əleyhinə və millətlərarası ədavətə çağırışlarda ittiham olunan Fəxrəddin Abbasovun həbs edildiyini bildirib.

2018-ci ilin iyulunda Bakıda F.Abbasova qarşı Azərbaycan CM-in 283.1 və 281.2-ci maddələri ilə cinayət işi açılıb və barəsində axtarış elan edilib.

F.Abbasovun Rusiyada müvəqqəti yaşama icazəsi olub, müddət bitdikdən sonra deportasiya edilib. O, Bakı aeroportunda hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb və istintaqa cəlb edilib.

Hazırda F.Abbaszadənin Ermənistanın xüsusi xidmət orqanları ilə əməkdaşlığı, KİV-də, sosial şəbəkələrdə və müxtəlif tədbirlərdə Azərbaycanın ərazi bütövlüyünə qarşı çağırışları və bəyanatları araşdırılır.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Həbsdəki OMON komandirinin qızından müraciət: "Atamı əfv edin"

## Aytac Əmiraslanova: "Bəlkə də sevincdən ürəyim gedər..."



**Qarşıdan gələn Novruz bayramında imzalanacaq əfv sərəncamında bir sıra siyasi məhbuslarla yanaşı Qobustan həbsxanasında ömürlük həbs cəzasına məhkum edilmiş OMON-çu məhbuslar-Elçin Əmiraslanov, Səfa Poladov və Arif Kazımovun da azad ediləcəyi deyilir. 25 ilə yaxındır cəza çəkən üç OMON-çunun ailəsinin ümid dolu baxışları əfvə dikilib.**

*OMON-un komandirlərindən sayılan E.Əmiraslanovun qızı, hazırda Rusiyada anasının yanında olan Aytac Əmiraslanova ilə əfv öncəsi söhbət etdik.*

***- Atanızı sonuncu dəfə nə vaxt görmüsüz? Ümumi durumu necədir?***

- Atamla hər həftə telefonla əlaqə saxlayıram. 6 fevralda onun ad günündə və 21 fevralda öz ad günümdə yenə əlaqə saxladıq. Məktublaşmaq imkanımız yoxdur. Çünki Rusiyadayam və buradan mümkünsüzdür.

***- Rusiyada ananızın yanındasınız. Orada qalacaqsınız, yoxsa ölkəyə qayıdacaqsınız?***

- İstirahətə gəlmişəm, ailəmin yanına. Azərbaycana qayıdacam. Yəqin ki, bu, mart ayının sonunda olacaq. Bura mənə öz vətənim kimidir. Hər zaman gəl-get olub.

***- Qarşıdan Novruz əfvi gəlir. OMON-çuların bu əfvlə azadlığa buraxılacaqları barədə xəbərlər dolaşır. Ümidlisinizmi?***

- Bəli, ümidlə gözləyirəm ki, bəlkə bu il atam azad olunar. Onu da fikirləşirəm ki, atamın həbsdə olmasının 25 ili tamam olandan sonra bu məsələyə baxıla bilər. Amma bəlkə də tez oldu, bilmək olmaz, Allah Kərimdir. Ümumiyyətlə, hər zaman hər şeyə ümidlə yanaşmışam. Bir vaxt sizə müsahibə verəndə də demişdim ki, ümidsiz insan həyatda yaşaya bilməz. İndiyə qədər atamla bağlı aidiyyəti qurumlara çox müraciət etmişik. Demək olar ki, hər ay belə müraciətlər edirik. Məktublarımızın çatdığı barədə bizə bildiriş gəlir, amma nəticəsini görmürük.

Hörmətli cənab prezident İlham Əliyevdən xahiş edirəm ki, atamı əfv etsin. Elçin Əmiraslanov II qrup əlildir, bədəni qəlpələrdən ibarətdir, bir ayağı axsayır, epilepsiyası var. Bunları nəzərə alaraq humanistlik edib atamı əfv edin. Bunu 24 ildir atasına həsrət qalan bir övlad kimi xahiş edirəm.

***- Elçin Əmiraslanovun azadlığa çıxmasına övladı hazırdırmı? Təsəvvür edəndə ki, həbsxana qapıları açılır və atanız qapıdan azadlığa doğru addımlayır, hansı hissləri keçirərsiniz? Onun təsəvvürü belə sizdə hansı hissləri oyadır?***





- Bu sualınızdan həqiqətən gözlərim yaşardı. Təsəvvür edəndə ki, atam bir ömür boyu yanıma gəlir və bundan sonra daim yanımda qalacaq... Bu mənim üçün bilirsiniz nə deməkdir? Hisslərimi ifadə etməkdə çox çətinlik çəkirəm. Nə qədər özümə güvənsəm də, cəsarətli, qorxusuz bir qız olsam da, atam yanımda olandan sonra konkret hər şey və hər kəs dəyişəcək. Bəlkə də sevincdən ürəyim gedər. Onu da qeyd edim ki, atam azad olunsa, onunla cəza çəkən digər iki OMON-çu Səfa Poladov və Arif Kazımov da azadlığa çıxacaq. Çünki hər üçünə qarşı irəli sürülən ittihamlar bir-biri ilə bağlıdır.

***- Azadlığa çıxdıqdan sonra planlarınız nədir? Sonuncu dəfə bizə müsahibənizdə atanız həbsdən çıxmayınca ailə həyatı qurmayacağınızı demişdiniz. İndi necə?***

- Hələ ki ailə haqqında düşünmürəm. Atam azadlığa çıxar, ondan sonra baxarıq. Hərdən düşünürəm ki, o, azad olunandan sonra ailə qurmaq haqqında düşünə bilməyəcəm. Çünki ondan ayrı qalmaq istəmərəm. Atam azad olunandan sonra planlarımız müəyyən olacaq. Çox istərdim ki, bütün ailəmiz birlikdə olsun, bir araya gəlsinlər. Mən istədikdən sonra belə olacağını düşünürəm. Amma yenə də hər kəsin qərarı var. Yaxşı olardı ki, hamı bərabər olsun. Axı bu ailədir.





Bundan sonra övladlar üçün yaşamaq və vuruşmaq lazımdır. Bu cümlələrlə nə demək istədiyimi hər kəs anladı. Bu müsahibəni oxuyan hər kəsə, xüsusilə qohum və tanışlara mesaj göndərirəm k, Elçin Əmiraslanov qızı ilə nəfəs alır. Aytac istədisə, hər şey həyata keçəcək. Təki atam azad olunsun. Bütün işlərimizin alına bilməyəcəyi kimi bir yol görünmür.

***- OMON-çu övladı olduğunuz üçün heç yerdə işə götürülmədiyinizi demişdiniz. Həmin problem yenəmi qalır?***

- İşlə əlaqəli demişdim ki, rütbəli işdə işləyə bilmərəm. Bu da indiyə qədər belə olub. Amma özəl və dövlət işlərində imkanım, icazəm var ki, özümə uyğun, layiq bildiyim işlərdə çalışım. Hazırda, şükür Allaha, işləyirəm.

***- Maddi durumunuz necədir?***

- Açığı deyim ki, maddi durumumuz hər zaman normal olub. İstədiyimizi almışıq, yemişik, geyinmişik. Bunlardan biz heç zaman məhrum olmamışıq və ya əziyyət çəkməmişik. İnşallah, bundan sonra da belə davam edər.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

**Danışıqlar tərəfdarı olduğunu bəyan edən Ermənistan işğalçılıq siyasətini davam etdirir. Elə işğal zonasında qanunsuz məskunlaşma işlərinin aparılması faktları da düşmənin dinc yolla ərazilərimizdən əl çəkmək niyyətində olmadığını təsdiqləyir.**




# İşğalçı Ermənistanın Arazboyu qanunsuz məskunlaşdırma planları

## İrəvanın danışıqları davam etdirmək niyyətinin arxasında vaxt qazanmaq niyyəti dayanır; erməni rəsmilərinin Qarabağla bağlı radikal bəyanatlarının tək səbəbi; politoloq: "Paşinyan qeyri-ciddi siyasətçi olduğunu bir neçə dəfə göstərib..."



Arzu Nağıyev

Yayılan məlumata görə, 2013-cü ildən Böyük Kilikiya Evi Katolikosluğu və Xankəndindəki qondarma separatçı-terrorçu rejimin birgə maliyyəsi hesabına Kəlbəcər rayonunun Kiçan kəndi yaxınlığında, Qarabağ müharibəsi zamanı "Azərbaycan ordusunun hücumunun dayandırıldığı məkanda" "Nor Kilikiya" ("Yeni Kilikiya") adlı yeni qəsəbə tikilir (Moderator.az). Bu haqda Rusiyada nəşr olunan erməni saytlarından birinin yaydığı məlumata görə, "artıq qəsəbədə onlarla ev tikilib, infrastruktur qurulub, yolların vəziyyəti yaxşılaşdırılıb. Yeni Kilikiya Qazançi icmasının bir hissəsidir və zamanla müasir şəhər tipli qəsəbəyə çevrilməyə iddia edir".

Xəbərdə daha sonra deyilir ki, Ermənistan və "artsax" (Dağlıq Qarabağ - E.P.) üçün strateji baxımdan əhəmiyyətli Murov dağlarından Araz çayına qədər olan ərazidə yerləşən Kəlbəcər ("Yeni Şaumyan") və "Kaşatag"(Laçın, Qubadlı, Zəngilan və Cəbrayılın bir hissəsi) rayonlarının bərpası və məskunlaşdırılması "artsax" hökumətinin əsas məqsədlərindən biridir. "Əlbəttə, bunun həyata keçirilməsi üçün "artsax"da Ermənistan və diasporun dəstəyinə güvənirlər..." - daha sonra bildirilir.

Qeyd edək ki, erməni nəşrinin sözügedən materialında Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyanın Azərbaycanın işğal altındakı torpaqlarına son gedişi zamanı etdiyi həyasız çıxışına dəstək məqsədi ilə son illər torpaqlarımızda aparılmış qanunsuz məskunlaşdırma proqramına dair faktlar sadalanır. 2009-cu ildən bəri Livan erməniləri tərəfindən yaradılmış "Artsakh Roots Investment" şirkətinin Laçın rayonunun Zabux kəndi ərazisində, Həkəri çayı sahilində 150 evdən ibarət yeni qəsəbə salması, 2016-cı il döyüşləri zamanı dağıdılmış Talış kəndində icma mərkəzi, şadlıq evi və 40 yeni ev tikintisi, Araz çayı sahilində "Araksavan" adlı 150 evlik yeni qəsəbənin salınması və s. haqda yazılır.

Qeyd edək ki, ötən həftə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyan Dağlıq Qarabağa, həmçinin işğal altındakı Füzuli rayonuna gəmişdi. O, Xankəndindəki terrorçu rejimin rəhbərliyi ilə Araz çayı sahillərində erməni yaşayış məntəqələrinin yaradılması və bura ermənilərin köçürülməsi məsələlərini müzakirə etmişdi. Üstəlik, A.Vanesyan Füzuli rayonunda olarkən belə demişdi: **"Qarabağda torpaqların Azərbaycana veriləcəyi barədə iddialar əsassız sözlər, boşboğazlıqdı. Qarabağın bir qarışını da Azərbaycana verməyəcəyik"**.

Ermənistan rəsmisi onu da demişdi ki, Füzuli rayonunda ermənilər "Araksavan" adlı qəsəbə salmaq, burada infrastruktur yaratmaq və kənd təsərrüfatını inkişaf etdirmək niyyətindədir. Onun iddiasına dediyinə görə, ermənilərin bu ərazilərdə yerləşdirilməsi Dağlıq Qarabağ ermənilərinin əsas təhlükəsizlik təminatlarından biridir.

**"Bəzi adamların guya torpaqları verəcəyimiz, bu barədə danışıqlar aparacağımız barədə bəyanatları elə ərazilərə köç proqramı ilə təkzib olunur. Bu minvalla erməni xalqına və dünyaya dəqiq mesaj verərək deyirik ki, kimsə torpaqları verən deyil. Əksinə, bu ərazilərdə ermənilər yaşamalı və yaratmalıdır"**, - A.Vanesyan bildirmişdi.

Bütün bu məlumatlar və işğalçı tərəfin həyasız davranışları düşmənlə danışıq aparmağın heç bir mənasının olmadığı qənaətini ortaya qoyur. Deməli, Ermənistana növbəti dəfə aprel şokunu yaşatmaq lazım gələcək. 2016-cı ilin aprelinədək Serj Sərkisyanda da Qarabağ məsələsinin "bitdiyi" barədə eyforiya var idi. O zamanadək gəncliyə xitabən onları Ağrı məsələsi ilə məşğul olmağa çağıraraq deyirdi ki, Qarabağ mövzusu bitib. Nikol Paşinyan da İran səfərində "Qarabağ Ermənistanındır. Son" yazılmış plakatın qarşısında şelfi etməklə keçmiş rəhbərliyin yanlışını təkrarlamış oldu. Lakin bütün bunların ardınca onun Azərbaycan prezidenti ilə danışıqlara hazır olduğunu deməsi əcaibdir.

Ötən həftə məlum oldu ki, Azərbaycan və Ermənistan rəhbərləri - prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan tezliklə ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşkilatçılığı ilə görüşməyə razılıq veriblər. Bu barədə həmsədrlərin bəyanatında deyilirdi. Qeyd olunurdu ki, vasitəçilər fevralın 20-də İrəvanda Nikol Paşinyan və fevralın 21-də İlham Əliyevlə görüşüblər və görüşdə liderlərin yaxın gələcəkdə keçiriləcək görüşü, müzakirə oluna biləcək məsələlər diqqət mərkəzində olub. Lakin görüşün dəqiq harada - Rusiyada, yoxsa digər iki həmsədr dövlətin (ABŞ, Fransa) ərazisində və ya hansısa Avropa şəhərində keçiriləcəyi məlum deyil. Belə bir görüş niyyətini keçən həftə İranda səfərdə olarkən N.Paşinyan da təsdiqləyib. Ancaq erməni baş nazir deyib ki, bu, gündəmsiz bir təmas olacaq. Paşinyan Tehranda, eyni zamanda, ənənəvi mövqeyini təkrarlayaraq bəyan edib ki, o, danışıqlarda yalnız Ermənistanı təmsil edə bilər, "Dağlıq Qarabağın isə öz hökuməti var".

Göründüyü kimi, erməni baş nazir faktiki olaraq danışıqları imitasiya ilə məşğuldur. Əks təqdirdə, prosesi pozmağa cəhd etməzdi. Digər tərəfdən, əgər Ermənistan rəhbərliyi Qarabağ torpaqlarının qaytarılmasını mümkünsüz sayırsa, onda görüşməyə nə ehtiyac?

Yeri gəlmişkən, Ermənistanda ictimai rəydəki aqressiv tonun mövcudluğu barədə elə bu ölkədən yenidən qayıtmış jurnalist Şahin Hacıyev də deyib. Onun sözlərinə görə, ermənilər məsələni bitmiş sayırlar. Belə olan təqdirdə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqları, sadəcə, Ermənistanın Qarabağda qanunsuz məskunlaşma siyasətini dinc şəkildə həyata keçirməsinə dəstək rolunu oynayır.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında Ermənistanın mövcud hakimiyyətinin aqressiv siyasətinin səbəblərini açıqladı:** "Ermənistanın yeni hakimiyyəti demək olar ki, həm xarici, həm də daxil siyasətdə qırmızı xətti keçir. Təsəvvür edin ki, iqtisadi islahatlarla bağlı müəyyən bir proqram təqdim edilsə də ciddi bir islahatlar başlanmayıb. Mitinqlərdə vergi və ya məhkəmə sistemlərində dəyişikliyə söz versə də, bu məsələ də hələ ki, alınmır və alınacağı da şübhə doğurur. Qərbə can atan Paşinyanın bu siyasəti də fiaskoya uğradı və Rusiya təbii ki, buna imkan verməz və Rusiya ilə də müttəfiqlik iqtisadi tərəqqiyə gətirə bilməz. Parlamentin 70 faizdən çoxu Paşinyanın komandasıdır, lakin onların müxtəlifliyi qarşıdurmaya gətirir. Xarici sərmayələr demək olar ki, yox dərəcəsindədir, diaspora siyasəti səhv aparıldığından effekt vermir, təbii ki, bunu son həbslər də təsir göstərir. İrana səfərdən sonra necə deyərlər, bir az ürəklənən Paşinyan da başa düşür ki, hazırkı durum çox ağırdır, çətin xarici və daxili siyasi proseslər xaos yarada bilər. Belə bir vaxtda yenə də ehtiyat variant kimi Qarabağ kartı işə salındı".

**A.Nağıyevin fikrincə, Dağlıq Qarabağa son səfərlərin bir sıra məqsədləri var:** "Əgər təhlükəsizlik xidmətinin rəisi yoxlamaya özü şəxsən gedirsə və səfərin məqsədi birbaşa Ermənistan prezidentinə, yaxud baş nazir Nikol Paşinyana məruzə etməkdirsə, deməli, bunların öz aralarında tələş var. Bako Saakyan və Artur Vanesyanın iştirakı ilə hərbçilərlə müşavirə keçirilirsə, bu da müəyyən məqamlardan xəbər verir. Deməli, Ermənistan təhlükəsizlik xidməti çox narahatdır. Sərkisyan və Köçəryanla bağlı cinayət işlərinin davam etməsi Ermənistanın təhlükəsizlik xidmətinə həvalə olunub: Sərkisyanın qardaşından alınmış böyük miqdarda vəsait də məhz qondarma rejimin ərazisində yerləşən ordu hissələrinə yönəldilib. Absurd bir vəziyyət yaranıb, Ermənistan guya qondarma qurumla əlaqələri kəsir, eyni zamanda qanunsuz tikililər və islahatlara start verir. Bu gün Ermənistan iqtisadiyyatı imkan verə bilməz ki, işğal olunan ərazilərdə böyük tikintilər aparılsın və məlumdur ki, bu qanunsuzdur və xarici sərmayədarlar da buna getməyəcəklər".

**Politoloq qeyd etdi ki, N.Paşinyan qeyri-ciddi siyasətçi olduğunu bir neçə dəfə göstərib:** "Lakin bunlar başa düşməlidirlər ki, hadisələrin sonu hərbi əməliyyatların bağlanmasına gətirib çıxara bilər. ATƏT-in Minsk Qrupu təəssüf ki, proseslərə dərhal reaksiya vermir və ya vermək istəmir. Çünki təmsil olunan dövlətlər sırf öz maraqlarını güdürlər. Təbii ki, belə davam edərsə liderlərin görüş formatını dəyişməyə cəhd dən Paşinyanla danışıqlar da baş tutmaya bilər, lakin XİN səviyyəsində artıq ciddi sorğulara cavab alınmalıdır. Bu, ilk növbədə Ermənistanın, həm ATƏT-in Minsk Qrupunun, həm də havadarların marağında olmalıdır. Əks halda, doğrudan da barıt qoxusu qaçılmaz ola bilər".

N.Paşinyanın siyasətdə və diplomatiyada nə qədər "piyada" olduğunu elə onun həbsdəki rəqibi, "Qarabağ klanı"nın rəhbərlərindən biri, Ermənistanın sabiq prezidenti Robert Köçəryan da həbsxanadan verdiyi yazılı müsahibədə təsdiqləyib.

**Modern.az 168.am saytına istinadən xəbər verir ki, müsahibəsi zamanı Köçəryan Nikol Paşinyan hökumətinin Dağlıq Qarabağ məsələsində və iqtisadi sahədə planlarını kəskin tənqid edib.**

"Paşinyan müxtəlif vasitələrlə maskalansa da, Qarabağla bağlı danışıqlar gedir. Şübhə doğuran danışıqların getməsi deyil, Paşinyanın bu danışıqlardan məsafədə durmağa çalışmasıdır. Cəmiyyət hakimiyyətin Qarabağla bağlı mövqeyini bilmir və bu, narahatlıq doğurur. Mövqe formalaşmadan necə uğurlu danışıqlar aparmaq olar? Danışıqlar vaxt keçirmək üçün görüş deyil, əldə olunmuş uğurların rəsmiləşdirilməsidir. Qarabağ münaqişəsi ilə bağlı bəzi çox vacib detallar var ki, onları danışıqlar başlamadan müəyyənləşdirmək lazımdır".

**Köçəryan Azərbaycan prezidenti İlham Əliyevin Nikol Paşinyanı danışıqlarda məğlub etdiyini də bildirib:** "Aydındır ki, Əliyev Paşinyanı Qarabağ danışıqlarında asanlıqla məğlub edib. Düşəndə liftdə aparılan danışıqlar bizim üçün sərfəli Vyana və Sankt-Peterburq razılaşmalarını yox etdi. Bu, çox böyük səhv idi. Ermənistan həm Azərbaycanda, həm də Minsk Qrupunda danışıqlar prosesi ilə bağlı böyük güzəşt gözləntisi yaradıb. Buna görə düşünürəm ki, Minsk Qrupunun növbəti təklifi bizim üçün sərfəli olmayacaq".

**Köçəryan Paşinyan hakimiyyətinin payızda ciddi siyasi etirazlarla üzləşəcəyini də proqnozlaşdırıb. Belə bir situasiyada Paşinyan çətin ki, "xalqların sülhə hazırlanması"na dəstək versin və hansısa addım atsın. İndi ona Qarabağla bağlı radikal mövqe sərgiləmək hakimiyyətini qorumaq üçün lazımdır. Azərbaycana isə Qarabağ lazımdır. Deməli, ekspertimiz deyən kimi, "barıt qoxusu qaçılmaz ola bilər..."**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019

**Xaçmazda məşhur iş adamı, "Arzu" Ticarət Mərkəzinin sahibəsi Nəcimə Babayevanın qətli yenidən gündəmdədir. 9 il ötməsinə baxmayaraq, qətlin gündəmdə qalmasının özəl səbəbləri var. Məsələni aktullaşdıran iş adamının yaxınlarının rayondan son aylarda dərbədər salınmalarıdır. Ötən illər ərzində qətlin üzərindən sirr pərdəsinin götürülməməsi, cinayət işinin nəticəsizliyi qətlin planlı şəkildə törədilməsi haqda söhbətləri yenidən gündəmə qaytarıb.**

# İş adamının qətlinin 9 il gizli qalan təfərrüatları - cinayət dosyesi

## Xirtdəyi kəsilərək öldürülən Nəcimə Babayevanın qızı ilginc açıqlamalar verdi; "anamızın kimin sifarişi ilə gətirilən killer tərəfindən öldürülməsini bilirik"

Rayona səfərimiz zamanı öyrəndik ki, iş adamının öldürüldüyü evdə artıq başqaları yaşayır. Nəcimə Babayevanın övladları Xaçmazı tərk ediblər.

**9 il əvvəl nə baş verib?**

15 sentyabr 2010-cu ildə "Arzu" MMC-nin təsisçisi və direktoru Nəcimə Babayeva yaşadığı evdə qəsdən öldürülüb. Fakt üzrə Xaçmaz Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci - qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanıb.

Həmin gün Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin əməkdaşları Xaçmaz rayonuna ezam olunub. Rayon prokurorluğu məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirib.

20 sentyabr 2010-cu ildə iş üzrə istintaqın davam etdirilməsi Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə tapşırılıb.

2010-cu il sentyabrın 15-də 08:45-də Nəcimə Babayeva xadimə Məlahət Məmmədova ilə mobil telefonla əlaqə saxlayaraq, sonuncudan onlara gəlib mənzildə təmizlik işləri aparmasını xahiş edib. Məlahət Məmmədova 10:35-də Nəcimə Babayevanın yaşadığı ünvana gəlib, həmin vaxt evin həyət darvazasının qapısı açıq olduğundan evə daxil olub. Xadimə 1-ci mərtəbədə mətbəxdə qan gölməçəsinin içində Nəcimə Babayevanın meyitini görərək qışqırıb küçəyə qaçıb.

Xadimənin səsinə evin 2-ci mərtəbəsində yatan Nəcimə Babayevanın qızı Gülnarə Həbibova yuxudan ayılıb. 1-ci mərtəbəyə düşüb və mətbəxdə anasının meyitini görüb.

Sonradan məhkəmə tibb eksperti mərhum Nəcimə Babayevanın boğazının kəsilərək qətlə yetirilməsi haqda rəy verib.

**73 yaşlı qadın niyə öldürülüb - versiyalar**

Xaçmazda bu gün də Nəcimə Babayevanın qətlindən danışanlar onun bazara görə öldürüldüyünü əminliklə deyir. Belə fikirlərin əsasını təşkil edənsə Nəcimə Babayevanın qətlinə qədər üzləşdiyi məhkəmə prosesləri, həmin



dövrdə bazarın əlindən alınmasına edilən cəhdlərdir. Məhz buna görə 5 uşaq anası, Yeni Azərbaycan Partiyasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü Nəcimə Babayevanın fiziki məhvi yolu ilə əmlakının ələ keçirilməsi iddiaları var. Nəcimə Babayeva 24 il müəllimə, 1980-1985-ci illər ərzində Xaçmaz rayonu Caparidze adına sovxozun həmkarlar təşkilatının sədri, 1985-ci ildən kolxoz bazarının direktoru işləyib.

2000-ci ildə 15 il direktoru işlədiyi Xaçmaz kolxoz bazarını özəlləşdirib. Bazarın bazasında "Arzu" Özəl Ticarət Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyətini təsis edib. 2006-cı ilin sonlarında Xaçmaza xəbər yayılır ki, bazar Nəcimə Babayevanın əlindən alınacaq, başçıya yaxın şəxslər bazarın yerində yeni ticarət mərkəzi tikəcəklər. Bu xəbər Nəcimə Babayevaya da çatır. Bundan sonra bazarı satmaq qərarına gəlir.

2006-cı ilin dekabrında Nəcimə Babayeva Şəmsəddin Xanbabayevlə görüşür, ona bazarı satmaq qərarını şəxsən bildirir. Xaçmazda bu gedişatı izləmiş şəxslər danışır ki, bundan sonra hər şey dəyişib, bazarın yerləşdiyi 2 hektara yaxın torpaq sahəsini ələ keçirmək üçün plan işə düşüb...

**İş adamının qızı illərin sirlərini açır**

**Nəcimə Babayevanın qızı, hazırda ölkə xaricində yaşayan Gülnarə Həbibova deyir ki, Xaçmazda yayılan xəbərlərin əksəriyyəti həqiqətdir. Onların Xaçmazdan çıxmaları da vaxtilə anasına qarşı aparılan kampaniyanın yenidən və daha sərt şəkildə təkrarlanması ilə bağlıdır.**

"Xaçmazda qalıb yaşamağımız mümkün deyil. Anamın əlindən bazarı ala bilməyənlər neçə illik fasilədən sonra yenidən hərəkətə keçiblər. Bizə təzyiqlər göstərilir, bazarın əlimizdən alınması üçün barəmizdə saxta, əvvəlcədən hazırlanmış şəxslər vasitəsilə ittihamlar irəli sürülür. Bu adamlar istəyirlər ki, tərəzinin bir gözünə bizim yaxınlarımızı, bir gözünə isə bazarı qoyub alver etsinlər. Anamla bacarmadılar, indi də məni yaxınlarımla sınağa çəkmək istəyirlər.

Bəli, anam 2006-cı ildə Şəmsəddin Xanbabayevin qəbulunda olmuşdu, ona demişdi ki, bazarı satır. Bundan sonra anama hər tərəfdən hücumlar başladı. YAP-dan qovulan Azad Yaqubov 2007-ci ilin yanvarında təcili Xaçmaz Kooperativlər Cəmiyyətinə sədr təyin olundu. 1 iyun 2007-ci il tarixdə bazar yandırıldı. Təşkil edilmiş yanğına görə anamı çağırıb barəsində cinayət işi başlayacaqlarını deyirdilər. Həmin günlərdə rayon rəhbərliyi ortaya yol planını atdı. Dedilər ki, ticarət mərkəzinin ərazisindən yeni yol salınacaq. Xəbər göndərdilər ki, ticarət mərkəzinin boşaldılması üçün fəaliyyətə başlanılır. Xanbabayevin sağ əli olan I müavini Akif Mərdanov və Rasim Məlikovu da bu işə qoşdu. Anamı rayon prokurorluğuna çağıraraq əvvəl onu həbslə hədələyərək bazarın ərazisini xoşluqla verməsini tələb etdilər. Heç nə alınmadı. Bundan sonra Akif Mərdanov o dövrdə rayon prokuroru olan R.Məlikova adi vətəndaş kimi məktub yazdı.

Eyni zamanda 1 qrup öyrədilmiş şikayətçi isə Şəmsəddin Xanbabayevə kollektiv və anonim ərizə yazdılar.

Hər 2 müraciətin məğzi eyni idi - tələb olunurdu ki, ticarət mərkəzi anamın əlindən alınsın və ərazidə yeni ticarət mərkəzi tikilsin.

Paralel olaraq Vergilər Nazirliyi tərəfindən ticarət mərkəzində yoxlama təşkil olunmuşdu.

Lakin bütün səyləri boşa çıxdı" - deyə Gülnarə Həbibova bildirir.

**"Məhkəmə proseslərini uddu, sonda sifarişlə xirtdəyi kəsilərək öldürüldü"**

**Onun sözlərinə görə, bundan sonra Xaçmaz Kooperativlər Cəmiyyəti və payçıları anasına qarşı məhkəmədə iddia qaldırıblar:**

"Anama qarşı bütün iddia, məktub, ərizə, şikayətlərin 1 məqsədi vardı - bazar Nəcimə Babayevadan alınmalıdır.

İş o yerə çatmışdı ki, Xaçmaz bələdiyyəsi tərəfindən məhkəmə proseslərində Azad Yaqubova bələdiyyə adından nümayəndə kimi təmsil olunmaq etibar edilmişdi.

Digər tərəfdən, 1 qrup öyrədilmiş şəxs Xaçmaz Rayon Məhkəməsində anamın müəllifi olduğu "Dünya dərdimdən xəbərsiz" kitabında yazdığı şeirlərə görə iddia verdilər. Həmin iddia da açıq-aşkar icra başçısının bazarla bağlı mövqeyini ortaya qoyurdu.

İddialarında yazırdılar ki, Nəcimə Babayeva şeirlərdə Şəmsəddin Xanbabayevin şərəf və ləyaqəti alçaldılıb. Buna görə də 250 min manat təzminat ödəməli, ən əsası isə təzminatdan başqa bazarı bağlanmalıdır. Əgər məhkəmədə şeir mübahisələndirilirsə, bazarın bağlanması iddiası niyə ortaya atılır? Digər iddialar kimi bu iddia da açıq-aşkar sifarişli idi. Həmin iddianın altına imza atanlardan biri Nizami Şəfiyev yuxarılara ən müxtəlif səpkili şikayətlər yazmışdı. Bundan sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinə tərəfindən "Arzu" MMC sifarişli şəkildə 2 min manat cərimə olundu. Anama qarşı sistemli, hərtərəfli iş aparılırdı və bu işlərin vahid mərkəzdən idarə olunması da şübhə doğurmurdu. Anam 3 ildən də artıq bir müddətdə mülkiyyəti uğrunda Şəmsəddin Xanbabayevin arxasında durduğu bir qrupla mübarizə apardı. Məhkəmə proseslərini uddu, sonda sifarişlə xirtdəyi kəsilərək öldürüldü".

**Baş Prokurorluq işə müdaxilə edir, günahsız insanların həbsinin qarşısı alınır**

**Gülnarə Həbibova anasının qətlindən sonra baş verənlərin də cinayətin ört-basdır olunmasına xidmət etdiyini deyir:** "Anam öldürüləndən sonra hadisə yerindən qatilə məxsus əl izlərini belə götürmədilər. O dövrdə rayon prokuroru olan Rasim Məlikov qardaşım Cavidi anamın ölümündə qatil kimi qələmə verməkdən çəkinmirdi. Mənə də təzyiq edirdilər ki, cinayət işinin rayon prokurorluğundan alınaraq Baş Prokurorluğa verilməsini tələb etməyim.

Anamın, mənim guya "əxlaqsız" həyat tərzi keçirməyimiz, qardaşım Cavidin isə narkoman, içki düşkünü olması, əmlak payından məhrum olduğuna görə anası ilə ədavəti olması haqda dırnaqarası faktlar toplanırdı. Elə fikir formalaşdırmağa çalışırdılar ki, guya bizim ailədə belə bir hadisənin baş verməsi spesifik haldır. Yəni bu qadını oğlu Cavid öldürə bilərdi. Eyni zamanda anamın sürücüsü O.Azayevə də təzyiq edib bu versiyanın doğru olması təssüratını yaradan ifadələr almaq istəyirdilər.

Hadisədən 5 gün keçəndən sonra şikayətimizi nəzərə alaraq Baş Prokurorluq cinayət işinin istintaqını rayon prokurorluğundan aldı. İş materialları Baş Prokurorluğun Ağır Cinayətlərin İstintaqı İdarəsinə göndərildi. Belə olmasaydı, Nəcimə Babayevanın qətli və bu qətlə görə ailə üzvlərinin həbsi baş verəcək, bazarın ələ keçirilməsi planı gerçəkləşəcəkdi. Bazar uğrunda onlara qarşı mübarizə aparacaq heç kim qalmırdı. Hesab edirəm ki, əvvəl gündən bazarın ələ keçirilməsi üçün çox yaxşı düşünülmüş plan olub. 2 hektara yaxın bir ərazini ələ keçirmək məqsədilə bazarla birlikdə anamın qətlinə sifariş verilib. Ötən 9 ildə nəticə odur ki, heç kimə qarşı rəsmən ittiham irəli sürmək olmur, anamın ölüm işi açılmır. Qətldən sonra keçən bu 9 il - bu qətlin arxasında duranların hər şeyi əvvəlcədən nəzərə aldıqlarını sübut etdi".

**Biz sifarişçinin, killerin kimliyini bilirik!**

**Gülnarə Həbibova deyir ki, onlara qarşı təxribatlar bir müddət ara versə də, son 2 ildə yenidən ən sərt şəkildə bərpa olunub:** "2017-ci il avqustun 9-da ticarət mərkəzinin ərazisində xırda ticarətlə məşğul olan Qurban Sadıqov və Cəmilə Sadıqova hamının gözü qabağında səbəbsiz olaraq anamın qəbrini nalayiq söyüşlərlə təhqir etməyə başladılar. Bizi təxribata çəkmək istədilər. Bazarda baş verəcək təxribatdan 2017-ci ilin aprel ayından xəbərimiz var idi və bu barədə Baş Prokurorluğa məlumat vermişdik. Bilirdik ki, bu adamlardan bizə qarşı oyunda istifadə edilirlər. Baş verənlərlə bağlı baş prokuror cənab Zakir Qaralovun qəbuluna yazıldıq. Bundan sonra cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edildi.

Sonradan həmin cinayət işi yenidən başlandı və bu gün də qanunsuz olaraq davam etdirilir.

13 noyabr 2017-ci ildə Q.Sadıqov və anası C.Sadıqova Sumqayıt İnzibati-İqtisadi Məhkəməsində məndən 288 min 891 manat pulun alınıb onlara verilməsi tələbi ilə iddia qaldırdı. Ali Məhkəmənin 24 oktyabr 2018-ci il tarixli qərarı ilə rədd edildi.

Biz anamızın Rusiyanın konkret hansı şəhərindən kimin sifarişi ilə gətirilən killer tərəfindən öldürülməsi barədə məlumat əldə etmişik və hüquq-mühafizə orqanlarından cinayət işinin açılması üçün əməli tədbirlər görmələrini gözləyirik".

***P.S.*** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019

# Misir şeyxinin çoxarvadlılıqla bağlı açıqlaması qalmaqal yaratdı

**Misirin, həmçinin Əl-Əzhər Universitetinin ali imamı şeyx Əhməd ət-Tayyib ölkədə qalmaqal yaradacaq açıqlama ilə gündəmə düşüb. "Associated Press" agentliyinin məlumatına görə, imam çoxnikahlılığın qadınlara münasibətdə ədalətsizlik olduğunu söyləyib. O, nikahın poliqamik olmasının məcburiliyini iddia edənlərin ciddi şəkildə yanıldığını bildirib.**

"Əgər ədalət təmin oluna bilinməsə, bir kişinin bir qadından başqası ilə nikaha girməsi qadağandır", - deyə agentlik imamın sözlərindən sitat gətirib.

Əhməd ət-Tayyib çoxnikahlılığın "Quranın kifayət qədər düzgün anlaşılmaması səbəbindən irəli gəldiyini və peyğəmbərin ənənələri ilə bağlı olduğunu" qeyd edib. Ali imamın televiziya ilə səslənən gözlənilməz bəyanı sosial şəbəkələrdə qızğın debatlara səbəb olub. Onların içində ölkədə çoxnikahlığı qadağan etməyə çağıranlar da olub.



Şeyx Əhməd ət-Tayyib

Buna görə də İslam dininin tədris edildiyi ən böyük təhsil ocaqlarından biri hesab olunan Əl-Əzhər Universiteti imamın heç də çoxnikahlılığı qadağan etməyə çağırmadığını izah etməyə məcbur qalıb.

Qeyd edək ki, çoxarvadlılıq mövzusu hazırda dünyada, xüsusən də müsəlman dünyasında ən çox mübahisə doğuran məsələlərdən biridir. Ənənəvi İslam mətnlərinə və eləcə də üləmanın şərhinə əsasən Quranda kişilərə eyni vaxtda 4 qadınla nikaha girmək hüququ verilib. Bu hüquqdan bir sıra ölkələrdə, o cümlədən ərəb ölkələrində geniş istifadə olunur. Ancaq eyni zamanda müasir İslam araşdırmaçılarına görə Quran bu məsələdə şərtlərlə çıxış edir. Yəni bir neçə qadınla ailə qurmaq bir mənada istisna və ya xüsusi şərtlərə bağlıdır. Çünki sözügedən ayədə, yəni Quran-Kərimin Nisa surəsinin 3-cü ayəsində kişilərə 4-ə qədər qadınla ailə qurmaq icazəsi verilən ayədə sonrakı cümlədə şərt qeyd olunur.

Mövzunun məhz Misirdə gündəmə gəlməsi özü də maraqlıdır. Çünki bir qədər əvvəl Misirdə gənclər qadınların başlıq pullarının çox olmasına etiraz olaraq etiraz kampaniyası başladıblar. Əhməd ət-Tayyibin açıqlamasının məhz bu ərəfəyə təsadüf etməsi xüsusilə maraqlıdır.

**Şərqşünas Samid Bağırov:** "Onun yeni reformist çıxışları ilə belə gündəmə gəlməsi Misirdə Məhəmməd Mursinin devrilməsindən sonra başlayıb"

**Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən şərqşünas Samid Bağırov düşünür ki, Əhməd ət-Tayyibin açıqlaması dini mövzudan daha çox siyasi çalarlı hadisədir. Söhbət ideoloji İslam cərəyanları arasındakı rəqabətdən gedir:** "İlk növbədə qeyd etmək lazımdır ki, əl-Əzhərin hazırkı şeyxi Əhməd ət-Tayyib ərəb dünyasında reformist islamçılardan hesab edilir. Ümumiyyətlə, Əhməd ət-Tayyib kimi reformist din alimlərinin fikirlərində ənənəvi İslamla uzlaşmayan məqamların olması təbiidir. Misir illərdir ərəb dünyasında (əhli-sünnə) İslam düşüncəsinin formalaşdığı bir məkan kimi təsir bağışlayıb. Ona görə bu və digər məsələdə əl-Əzhər şeyxinin fikri xüsusi önəm kəsb edir. Maraqlı budur ki, hazırda ərəb dünyasında ənənəvi İslamı təmsil edən və reformistlərlə tam şəkildə razılaşmayan və hazırda "İxvan əl-Muslimin" hərəkatının mənəvi lideri hesab edilən Yusif əl-Qərdavi də misirlidir. Əl-Qərdavi hazırda Misir də digər ərəb dövlətlərində İslamın ənənəvi kursunun davam etdirəni kimi tanındığı kimi Əhməd Tayyib də son dövrlərdə islamçıları təqib edən dövlətlərin İslam modelinin aparıcı fiquru kimi meydana çıxıb. Əhməd Tayyibin əl-Əzhər şeyxi olması ərəb baharından öncəyə təsadüf edir. Lakin onun yeni reformist çıxışları ilə belə gündəmə gəlməsi Misirdə Məhəmməd Mursinin devrilməsindən sonra başlayıb. Misirdə onlarla "İxvan əl-Müslimin" liderinin edamı haqda verilən qərarlar da elə əl-Əzhər şeyxinin imzasından sonra həyata keçirilməlidir".

**S.Bağırov deyir ki, son illərdə varlı ərəb dövlətləri arasında ənənəvilikdən qaçan, ölkədə xristian, yəhudi və buddist məbədlərin tikilişini təmin edən Birləşmiş Ərəb Əmirliyi bu zəmində əl-Əzhərin şeyxinə maddi və mənəvi dəstəklər verən əsas tərəflərdən biridir:** "BƏƏ ilə yanaşı mövcud Misir hakimiyyətinin, Səudiyyə Ərəbistanının yeni islamçılıqla bağlı təbliğat kompaniyalarının əsas tərkib hissəsində də əl-Əzhər və onun rəhbərliyi yer alır. İslamda çoxarvadlılıqla bağlı əl-Əzhər şeyxindən ənənəviliyə zidd olan fikirlərin eşidilməsi də bu fonda baş verə bilər və gözlənilədir. Lakin Əhməd Təyyibin çoxarvadlılıqla bağlı son çıxışı, görünür, daha çox kontekstindən çıxarılmış təbliğat məqsədli bir olaydır. Quranda buyurulduğu kimi müsəlman eyni zamanda iki, üç, ya dörd qadınla evlənə bilər. Lakin Quran-Kərim özü bunun baş tutması üçün şərt irəli sürür və yalnız ədalətə riayət ediləcəyi təqdirdə onu icazəli bilir. Əl-Əzhər şeyxi də bu şərtin olmayacağı təqdirdə çoxarvadlılığın günah olduğunu dilə gətirir. Əhməd Təyyibin bu fikri misirliləri niyə qıcıqlandırıb?! Əsas buna görə yox ki, o çoxarvadlılığa ziddir. Bəlkə Misir mediasında və ictimaiyyətində bu məsələ ilə bağlı qıcıq ondan irəli gəlir ki, ölkədə əhali yoxsulluq içindədir və gənclər imkansızlığa görə bir dəfə olsun belə evlənə bilmirlər. Və belə olan halda çoxarvadlılığın düzgün olmaması fikri əslində ictimaiyyəti cari aktual məsələlərdən yayındırmaq məqsədi daşıyır".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Tramp Maduronu xalqla yıxa bilmədi, neftlə devirir - yeni gəlişmələr

## Venesuelada yanacaq 6 həftəyə bəs edəcək, iki zavod və Vahid Ələkbərovun şirkəti dayandı

**Venesuela müxalifət lideri Xuan Quaydo xalqı küçələrə çağırıb. Quaydo bazar ertəsi günü Latın Amerikasının müttəfiq ölkələrinə səfərini başa vuraraq Venesuelaya qayıdıb.**

"Mən ölkəyə qayıtmağımı elan edirəm. Mən Venesuela xalqını bütün ölkə boyu səhər saat 11-də səfərbər olmağa çağırıram", - Quaydo twitter səhifəsində belə yazıb.

Bu yaxınlardakı çıxışında ABŞ prezidenti Donald Tramp isə Venesuela prezidenti Nikolas Maduronu dəstəkləməkdə olan hərbçilərin ünvanına sərt xəbərdarlıq edib:

"Maduronu dəstəkləyənlər təhlükəsiz yer və asan çıxış yolu tapa bilməyəcəklər - siz hər şeyi itirəcəksiniz!"

Ağ Ev bildirir ki, bütün tərəflərin iştirakı ilə Maduronu prezident postundan götürmək üçün dinc üsul axtarır, lakin buna baxmayaraq, hərbi müdaxilənin mümkünlüyünü göstərən bütün variantlar da gözdən keçirilir.

Vaşinqtonun Venesuela liderini inadla devirmək cəhdi hətta Maduronun bəzi düşmənlərini də narahat edir və bunun səbəbi ABŞ-ın regiona müdaxiləsinin uzun tarixi ilə bağlıdır. Faktiki isə Maduronun devrilməsi planı uzanmaqdadır.

Məlumata görə, ölkədə yanacaq cəmi 6 həftəyə bəs edəcək, aprelin ortalarında yanacaq anbarları boşalacaq. Hazırda Venesuela sahillərində 500 milyon dollara olan 8.4 milyon barel neftlə yüklü 16 tanker dayanıb, ölkədə neft hasilatı gündə 1.49 milyon barelə qədərə azalıb.



Venesuelanın dövlət neft şirkəti sanksiyalara görə nefti sata bilmir, ölkənin özünün neft emalı zavodlarının gücü isə neftin hamısını emal etməyə bəs etmir.

İki iri neftayırma zavodu fəaliyyətini dayandırıb. Onlar gündə cəmi 77 min barel yanacaq istehsal edirdi. Daha bir neftayırma zavodu - "Paraquana" isə 940 min barel istehsal gücünə malik olsa da cəmi 70 min barel yanacaq istehsal edə bilir.

Bu isə daxili bazarda tələbatı ödəməyə bəs etmir. Təkcə Venesuela donanması gündə 110 min barel benzin və 80 min barel dizel istehlak edir.

Maduro problemi Hindistanın hesabına həll etməyə çalışır. Hindistan ABŞ-ın embarqolarından sonra Venesueladan neft almağa icazəsi olan yeganə ölkədir.

Bu arada sanksiyalara görə Rusiyanın "LUKoil" şirkətinin beynəlxalq treyder şirkəti "Litasco" da Venesuelada əməliyyatlarını dayandırıb. Bu barədə jurnalistlərə "LUKoil" prezidenti Vahid Ələkbərov bildirib.

**Siyasi şərhçi Hikmət Hacızadə "Yeni Müsavat"a bildirdi ki, bütün diktaturalara ölüm yaraşır:** "Venesuelada iqtisadiyyat çöküb, yemək yoxdur. Ölkədə dərman tapılmır, ölkəni böhranlı vəziyyətə gətirib çıxarıblar. Xalq da dəyişmək istəyir. Əgər bu, demokratik hərəkat deyilsə, bəs nədir?"

**H.Hacızadənin sözlərinə görə, Venesueladakı hadisələri yalnız neftlə əlaqələndirmək də doğru olmaz:** "Sizin qeyd etdiyiniz amillər istisna edilmir. Təbii ki, neft maraqları var. Ancaq biləsiniz ki, indiyə qədər Amerikanın neft şirkətləri Venesuelada işləyirlər".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 51 (7221) 5 mart 2019

# Energetik içkilər ölüm saçır - aparıcı qız dünyasını dəyişdi

## AQTA energetik içkilərin satışına və reklamına müəyyən məhdudiyyətlər qoyulmasını təklif edir

**Əhali arasında enerji içkilərindən istifadə halları artmaqdadır. Xüsusən azyaşlıların energetik içkilərdən istifadəsi ən təhlükəli hallardan biridir. Bir müddət öncə gömrük rüsumlarının qalxması səbəbindən bu məhsulların qiyməti artdı və ehtimal olundu ki, artıq kütləvi istifadə hallarına da son qoyulacaq. Lakin sonra yenidən qiymətlər əvvəlki səviyyəyə endi. İndi marketlərdə 1 manat civarında satılan müxtəlif növ enerji içkiləri var ki, məktəblilər gündəlik xərcliklərindən istifadə edərək onu ala bilirlər.**

Baku.ws xəbər verir ki, Azərbaycanda Aydan Vəliyeva adlı gənc aparıcı qız enerji içkilərinin qurbanı olub. O, energetik içkiləri hədsiz çox içdiyindən sağlamlığında ciddi problemlər yaranıb, sonra da komaya düşüb və keçinib.

Tələbə yoldaşları sosial şəbəkədə yazırlar ki, energetik içki Aydanın əlindən düşmürmüş. Buna görə də onu redbullu qız kimi tanıyırdılar.

Qiymətin ucuz olması enerji içkilərinin yeniyetmə və uşaqlar tərəfindən də çox istehlak edilməsinə gətirib çıxarır. Bu içkilərdən istifadə edənlər arasında ölüm hallarının olması da heç kimə sirr deyil. Bəs görəsən, problemdən çıxış yolu nədir?

**Tanınmış pediatr Vaqif Qarayev bildirdi ki, bu içkilər uşaqların səhhətinə ciddi ziyan vura bilər:** "Energetik içkilərin tərkibi ilk baxışdan cəlbedicidir ki, enerji potensialını artırır. Ancaq uşaqlar davamlı olaraq ondan istifadə edirsə, xoşagəlməz problemlər ortaya çıxır. Energetik içkilərin ziyan vermədiyi orqan yoxdur. Mərkəzi sinir sistemi, ürək-damar sistemi, mədə-bağırsaq sisteminə fiziki ziyanları olur. Psixoloji ziyanı da kifayət qədərdir, bu içkilər asılılıq yaradır. Bu içkilər öncə əlavə enerji yaradır, ancaq sonra orqanizmin həyat fəaliyyəti üçün lazım olan enerji də yeyilir. Energetik içkilərin tərkibində kafein var, o, ürək döyüntülərinin sayını artırır, təngnəfəslik və boğulma yaranır, arterial təzyiq dəyişir. İnsanda ya həddindən artıq oyanıqlıq olur, ya da depressiya yaranır. Bu içkilər asılılıq yaradır, insan başqa heç bir qida qəbul etmək istəmir, vaxtı gələndə mütləq bu içkidən istifadə etmək istəyir. Ölüm halları daha çox energetik içkilərin ürək-qan damar sisteminə olan təsirindən baş verir. Bəzən 5-6 yaşlı uşaqlar, hətta daha kiçik uşaqlarda da görürəm ki, marketlərdə anaları alıb verir, elə oradaca açıb içməyə başlayırlar. Bu zaman ürək döyüntüləri kəskin artır, artıq ürək fəaliyyətini idarə edə bilmir, bu zaman qəfləti dayanma ola bilər. Ən çox orta məktəbin son sinfində oxuyan şagirdlər və tələbələr istifadə edirlər. Ölüm faktı da məhz bu yaş kateqoriyasında olur".

**Pediatr bu məhsulların televiziyalarda kütləvi şəkildə reklam olunmasını tənqid etdi:** "Avropanın bir çox ölkələrində o içkilərin istehsalı və istehlakı qadağan olunub. Təəssüf ki, bizim yerli telekanallarımızda bu enerji içkiləri təbliğ olunur, bu fonda bizim təbliğatımız, xəbərdarlıqlarımız kölgədə qalır. Yaxşı olar ki, enerji içkilərinin zərəri ilə bağlı televiziyalarda da yarım dəqiqəlik sosial çarxlar verilsin".

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin mətbuat xidmətinin rəhbəri Aysel Fərziyeva da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, enerji içkilərinin istehsalında istifadə olunan kofein, şəkər, taurin, quarana kimi maddələr, rəngləyici qida əlavələri günlük normadan artıq qəbul edildiyi halda insan sağlamlığında müəyyən fəsadlar törədə bilər:** "Kofein, fiziki olaraq ürək ağrıları riskini artırır, skelet əzələlərini stimullaşdırır, insulin həssaslığını azaldır. İnsan orqanizmi kofeinin müəyyən ölçüdə qəbul edilməsinə tolerantdır, ancaq böyük həcmdə enerji içkisi kimi qəbul edilməsi daha ciddi fəsadlara, qıcolmalara, maniya, insult və qəfil ölümə səbəb ola bilər. Sağlam, yetkin insanların gün ərzində 400 mq-dan az kofeindən istifadə etməyi təhlükəsiz sayılır. Kəskin klinik toksik təsir 1 qr-dan başlayır, 5-10 qr arasında isə istifadə ölüm hallarına gətirib çıxara bilər. Enerji içkilərinin tərkibində əlavə edilən kofeinin miqdarı insan sağlamlığına təhlükə yarada bilməyəcək səviyyədə olmalıdır. Bu içkiləri qəbul etmək insanlara, xüsusilə da kiçik yaş qruplarında olan uşaqlarda yuxusuzluq, piylənməyə, böyrək xəstəlikləri, sinir sisteminin pozğunluqları və sair səbəb ola bilər".

**A.Fərziyeva vurğuladı ki, Ümumdünya Səhiyyə Təşkilatının Avropa Şöbəsinin 2014-cü ildə açıqladığı hesabata əsasən, enerji içkiləri gənclərin sağlamlığında müəyyən problemlər yarada bilər:** "Bu qida məhsulları daha çox fiziki və zehni gücü artıran məhsullar olaraq ictimaiyyətə təqdim edilsə də, insanların sağlamlığı üçün zərərli tərəfləri mövcuddur. Ümumdünya Səhiyyə Təşkilatı hazırladığı hesabatda enerji içkiləri üçün kofein məhlulunun maksimum həddinin müəyyənləşməsini, marketinq fəaliyyətlərində standartların tətbiq olunmasını, enerji içkilərinin uşaqlara satılmasının qarşısının alınmasını məsləhət görür. Bütün bunları nəzərə alaraq agentlik tərəfindən əhalinin sağlamlığının qorunması məqsədilə enerji içkilərinin 18 yaşına çatmamış şəxslərə, hamilə qadınlara satılmasının, məktəblər və xəstəxanalarda satışının təşkili və reklamının qadağan olunması ilə bağlı müvafiq təkliflər hazırlanaraq aidiyyəti qurumlara təqdim edilib".

Agentlik sözçüsü bildirdi ki, bir daha 18 yaşına çatmamış yeniyetmələri, hamilə qadınları, süd verən anaları, ürək-damar, psixonevroloji, böyrək və qaraciyər xəstəliklərindən əziyyət çəkən insanları enerji içkilərindən istifadə etməməyə çağırırlar.

Qeyd edək ki, xarici ölkələrdə də bu cür məhdudiyyət və qadağalar var. Almaniya enerji içkilərinin yaratdığı mümkün fəsadları 2002-ci ildən izləyir. Hesabatın nəticələrinə görə, qaraciyərin zədələnməsi, böyrək çatışmazlığı, tənəffüs pozğunluğu, psixi gərginlik, ruhi sarsıntı, taxikardiya, ürək disritmiyası, yüksək təzyiq, ürək çatışmazlığı və ölüm daxildir.

İrlandiyanın Toksikologiya Mərkəzinin verdiyi məlumata görə, 1999-2005-ci illər ərzində enerji içkilərinin istifadəsi taxikardiya, qıcolma və iki ölüm faktı ilə nəticələnib.

Yeni Zelandiya Toksikologiya mərkəzi bu içkilərin törətdiyi fəsadlarla bağlı 2005-2009-cu illər ərzində 20 xoşagəlməz fakt qeyd alıb.

ABŞ Səhiyyə Nazirliyi nəzdində Qida və Dərman Təşkilatının hesabatına görə 2004-2012-ci illərdə ABŞ-da 18 nəfər enerji içkiləri səbəbindən dünyasını dəyişib, 150 nəfər isə ölüm təhlükəsi ilə üzləşib.

Artıq bəzi ölkələrdə enerji içkilərinin satışı, istifadəsi və reklamına qarşı müəyyən tədbirlər də görülüb. Belə ki, İsveçdə uşaqlara bəzi enerji içkilərinin satışı qadağan olunub, Macarıstanda isə satışına əlavə vergilər tətbiq olunub. Norveçdə apteklərdə satışına icazə verilir, Danimarka və Uruqvayda bütün enerji içki növlərinin satışı qadağandır. Avropa Birliyi ölkələrində enerji içkilərinin qutularında "kofein miqdarı" yazısı olmalıdır. Türkiyədə isə içkilərin 18 yaşından kiçik insanlara satılmasına, eyni zamanda idman mərkəzləri, məktəblər və xəstəxanalarda satışının təşkilinə və reklam edilməsinə icazə verilmir.

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**




## "Bakcell"in 4G şəbəkəsi artıq bütün ölkə ərazisini əhatə etməkdədir

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil intenet provayderi "Bakcell" şirkəti artıq ölkənin bütün bölgələrində yüksək keyfiyyətli 4G xidmətlərini təqdim edir. Artıq Bakı, Abşeron yarımadası və Azərbaycanın bütün şəhər və rayonlarında (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) yaşayan "Bakcell" abunəçiləri şirkətin təqdim etdiyi yüksək sürətli mobil İnternet xidmətlərindən yararlana bilirlər.**

**Qeyd edək ki, 1700-dən artıq 4G stansiyası sayəsində "Bakcell" şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük LTE şəbəkəsinə malikdir.**

**"Bakcell" 2018-ci il ərzində mobil internet xidmətlərini ölkənin regionlarına doğru genişləndiriməyə davam edib. Şəbəkəyə yatırılan iri həcmli sərmayələr nəticəsində keçən il 300-ü regionlarda olmaqla 800-dən artıq 4G stansiyası quraşdırılıb. İstifadəçilər üçün ən yüksək keyfiyyətin təmin olunması istiqamətində aparılan işlərin davamı olaraq bu il ərzində ölkə ərazisində 750-dən çox 4G baza stansiyası istifadəyə veriləcək.**

**"Bakcell" öz şəbəkəsinin etibarlılığını və sabitliyini təmin etmək məqsədilə müntəzəm olaraq şəbəkə infrastrukturunu təkmilləşdirir.**

**"Bakcell" şirkəti bazarda lider mövqeyini daha da gücləndirmək və xidmətlərin keyfiyyətini daha da artırmaq məqsədilə Azərbaycanın ən keyfiyyətli 4G şəbəkəsinə iri həcmli sərmayələr yatırır. Məqsədimiz odur ki, 4G xidmətlərimiz bütün ölkə ərazisində təmin olunsun. Buna görə də şəbəkəmizin əhatə dairəsi və keyfiyyətinin artırılmasına yönəlmiş işlər davam etdiriləcək", deyə "Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**"Bakcell"in təmin etdiyi keyfiyyət və ən yüksək mobil İnternet sürətinə yerli və beynəlxalq səviyyədə yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə "Bakcell" "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Dünyada tanınmış "Ookla" şirkəti tərəfindən təsdiq edilib ki, "Bakcell" şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").**

**"Bakcell" özünün yüksək keyfiyyətli mobil şəbəkəsinin genişləndirilməsi və modenrnizasiyasına yönəlmiş iri-miqyaslı tədbirləri davam etdirəcək.**

### Bakcell haqqında

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.**

**7000-dən artıq baza stansiyası vasitəsilə "Bakcell" şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. "Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun. Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "Bakcell"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.**

YENİ MÜSAVAT

N 51 (7221) 5 mart 2019

# Bu gün Od çərşənbəsidir

## Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir...

**Xalqımız əsrlərdən bəri qeyd olunan Novruzu yeni ilin başlanğıcı hesab edib, onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmzləşdirib. Novruzdan önceki 4 çərşənbə də böyük təntənə ilə, yazın, yeni ilin, yeni həyatın başlanğıcı kimi qeyd olunub və onlara həyat üçün vacib olan 4 ünsürün adı verilib. Bu gün boz ayın ikinci çərşənbəsi olan Od çərşənbəsidir.**

AMEA Folklor İnstitutunun, Folklor və yazılı ədəbiyyat şöbəsində aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ə. Vəliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Novruz yaradılışın mərhələlərini əks etdirən dörd ünsür - su, od, yel və torpaqla bağlı mərasimlərin qeyd olunması ənənələrini özündə birləşdirir: "İlin axır çərşənbələrindən ikincisi xalq arasında Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. İnsanlar hər zaman Oda ehtiyac duyublar. Odun kəşfi insan həyatını rahatladan ən mühüm ünsürlərdən biri olub. Mifoloji rəvayətlər göstərir ki, qədim zamanlarda insanlar nəyə ən çox ehtiyac hiss etmiş və ya nədən daha çox təsirlənmişlərsə, onu müqəddəs olaraq qəbul etmiş və inanclar, mərasimlər yaratmışlar.

Ümumiyyətlə, türkdilli xalqlarda günəşə, oda, atəşə böyük inam olub. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar. Digər çərşənbələrdə olduğu kimi, od çərşənbəsində də qazanlar qaynamalı, ocağın üstü boş olmamalıdır. Bu çərşənbədə odun, tonqalın yandırılması həmin ilin isti, bərəkətli keçməsinə işarədir. Odun, tonqalın olması istiliyin mənasını ifadə edir və yazın gəlişi də havaların isinməsinin əsas göstəricisidir. Od çərşənbəsi günündə qazanlar qayanamalı, insanların ocağının üstü boş qalmamalıdır".



**Ə.Vəliyevin sözlərinə görə, bayramlarda tonqal qalamaq qədim insanların Günəşə, oda olan müqəddəs inamından irəli gəlir:** "İnanclara görə, tonqal yeni həyatın, baharın, istiliyin gəlişinin rəmzidir. Hələ qədim dövrlərdən insanlar odu qoruyub, oda hörmət ediblər. Qalanan tonqal isə həmişə nəyəsə işarə olub. Bunu "Kitabi Dədə Qorqud" dastanında da aydın görmək olar. İnsanlar arasında belə bir etiqad yaranıb ki, insanlar günəşi və odu nə qədər əzizləsələr, təbiət o qədər tez isinər, onlara xoşbəxtlik gətirər. Qədimdə kənd yerlərində bayramlarda, şad günlərdə kəndliləri agah etmək üçün həmişə dağların başında tonqallar qalanarmış. Əgər dağlar olmasa hündür yerlər seçərək, o hissələrdə tonqalın qalanması daha məqsədə uyğun hesab olunurmuş. Şad günlərdə tonqal qalanması haqqında məlumatlara "Kitabi Dədə Qorqud" dastanında da rast gəlinir. Burada da tonqala olan münasibət və onun müqəddəsliyi haqqında fikirlər var. Dastanda Dədə Qorqud Oğuz igidlərinə deyir ki, şad günlərinizdə, bəd günlərinizdə uca dağ başında tonqal qalayın. Uzaqdakı Oğuz igidləri o tonqallar sayəsində darda və ya şad gündə olduğunuzu təyin edib köməyə gələ bilsinlər. Xalqın həm şad, həm də bəd günündə tonqalın köməyə gəlməsi və onun yandırılması ilə müəyyən işlərin bəyan edilməsi odun müqəddəsliyini bir daha diqqətə çatdırır".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Dəbdəbəli məzarlarla bağlı qanun layihəsi gecikir - səbəb

## Deputat: "Görünür, belə bir qanunun qəbulu kimlərəsə sərf etmir..."

**Azərbaycanda ildən-ilə məzar daşlarının, qəbir yerlərinin qiyməti qalxır. İnsanlar bundan narahat olsa da, "el qınağı" deyib, qonşudan geri qalmamaq üçün rəhmətə gedən yaxınlarına dəbdəbəli məzar düzəltdirirlər.**

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, ölkəyə gətirilən mərmərin, qranitin qiyməti artırılıb. Konkret qiymətlərə gəlincə, Çindən gətirilmiş ağ mərmərdən başdaşı 1000 manata başa gəlir. Çin daşları keyfiyyətsiz olduğu üçün bir müddət sonra çatlayır, rəngini dəyişir. Ona görə də insanlar əsasən daha bahalı olan İtaliya, Hindistan daşına üstünlük verirlər. Bu ölkələrdən gətirilən mərmərin qiyməti 3-4 min manatdır.

Lakin xərc təkcə başdaşı ilə bitmir. Dəbdəbəli məzarların yerləri də bahadır. Belə ki, "Qurd qapı"sı qəbiristanlığının boş qalan arxa massivində yerlər 5000 manatdır, girişə yaxın yer götürmək isə 7000 manatdan aşağı deyil. Biləcəridə 500-600, Xırdalanda 1000-1500, Günəşlidə 600-1000, Qaraçuxurda 500-700, Hövsanda isə məzarlıqlarda qəbir yerləri 300-400 manatdır. Nisbətən ucuz məzar daşı sifariş verənlərin isə 1000-1200 manatı çıxır.



Dəbdəbəli məzarlarla bağlı hələ 2017-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi təkliflər hazırlamışdı. Layihə Milli Məclisdə müzakirə edildi, məzar üçün götürüləcək ərazidən tutmuş, başdaşıların ölçüsünə qədər standartlar müəyyənləşdirilmişdi. Amma qanun hələ də qəbul edilməyib.

**Məsələ ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı 2017-ci ilin sentyabr ayında bildirmişdi ki, qəbul olunan qərara görə, qəbiristanlığın salınması, qəbirlərin ölçüsü, onların yerləşdirlimləsi ilə bağlı bəzi ümumi standartlar tətbiq ediləcək:** "Bu qaydalar yenilənir və yaxın günlərdə bununla bağlı qərar qəbul olunacaq. Qaydalara görə, qəbirlər üzərində dəbdəbəli daşların qoyulması, ölçülərdən kənara çıxılması olmayacaq. Qəbirlər və sinə daşları vahid ölçüdə olacaq və bu ölçülər tətbiq olunan zaman İslam dininin bununla bağlı bütün qaydalarına əməl olunacaq".

**Bəs bu qərarın qəbulu niyə gecikir? "Yeni Müsavat"a danışan deputat Fazil Mustafa ehtimal edir ki, müəyyən qüvvələrin marağına uyğun gəlmədiyi üçün hələ ki gündəmə çıxarılmır:** "Necə ki, xatırlayırsınızsa, tütün əleyhinə də qanun qəbul etmişdik. Ancaq bu qanun da işləmir. Çünki qanundan güclü qüvvələr var ki, onlar qanunun işləməsinə imkan vermirlər. Burada da, görünür, məsələ oxşardır. Qanunu qəbul etmək üçün belə başa düşülür ki, şərtlər uyğun deyil. Bunun başqa səbəbi olmamalıdır. Əks halda, qanun çoxdan qəbul edilməli idi ki, insanlar bu cür milli və dini adətə zidd olan formada yüklənmələrinin yanlış olduğunu görsünlər. İnsanlar özlərinin işlərini asanlaşdırmağa çalışmalıdır. Bu, çox problemli məsələyə çevrilsə də, əslində sadə prosesdir. Bir qərar qəbul edib, hamının da buna əməl etməsini təmin etmək lazımdır. Azərbaycan üçün bu istiqamətdə maarifçilik bir qədər çətin keçir. Şöhrətpərəstlik, başqasını müəyyən dərəcədə razı salmaq xəstəliyi insanları çətin duruma salır. Kimə başa sala bilərsən ki, yası bu cür keçirmə? Hamısı deyir ki, camaat deyər ehsan verməyə qıymadı. Elə düşünürlər ki, camaat gəlib, filan şey deyəcək, belə düşünəcək. Ona görə də özlərini əziyyətə verib, borca düşüb ehsan verir, dəbdəbəli başdaşı alırlar. Ona görə də qəbirdaşları məsələsinə də bu kontekstdən baxmaq lazımdır. Vahid bir qanun qoyulmalı və buna da əməl edilməlidir. Əks halda, bunu Azərbaycan xalqının üzərinə buraxsan, heç nə dəyişməyəcək. Düşünməyək ki, xalq özü bunun zərərini görüb, qaydaları dəyişəcək. Belə bir şey mümkün deyil. Çünki biz xeyrimizə olanı nə yeyirik, nə içirik, nə yaşayırıq, nə də oxuyuruq. Təəssüf ki, bizim yalnız zərərli şeylərə meylimiz böyükdür. Ancaq müqayisə zəminində nələrisə oxumağa, mənimsəməyə çalışırıq. Nəticə də budur ki, problemləri həll edə bilmirik".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Ramanada sakinlər gölməçələrdə "boğulur"

## "Uşaqlarımız məktəbə, özümüz işə gedib-gələ bilmirik"

**Sabunçu rayonu, Ramana qəsəbəsi, Şuşa şəhərciyinin ətraf ərazilərində yaşayan sakinlər yağış, kanalizasiya sularının yaratdığı gölməçələrin əhatəsində qalıb.**

Bu barədə "Yeni Müsavat"a məlumat verən sakinlərin sözlərinə görə, yağış yağandan sonra vəziyyətləri daha da acınacaqlıdır:

"Uşaqlarımız məktəbə, özümüz işə gedib-gələ bilmirik. Küçələr suyun içərisində idi. Yağış yağandan sonra həyətlərimizi də su basıb. Yerə mişar daşı qoyub, onun üzərində hərəkət edirik. Hava qızandan sonra isə ərazidə həşəratların əlindən tərpənmək olmur. Yay aylarında buradan üfunət qoxusu gəlir. Səbəb də odur ki, ərazidə kanalizasiya sistemi mövcud deyil. Məsələ ilə bağlı müvafiq qurumlara müraciət etsək də, nəticə yoxdur. Evlərimizin altı su olduğu üçün divarlarda problemlər yaranıb. Evin içərisi nəmişlikdir, bünövrəsi isə ovulub gedir. Xahiş edirik ki, bizə yardım edilsin".

Yada salaq ki, ötən həftə ərazidə yaşayan sakinlər küçəyə çıxaraq, aksiya keçirmişdilər. Sabunçu Rayon İcra Hakimiyyətindən bildirilmişdi ki, sakinlərin problemləri dinlənilib, müvafiq tədbirlər görüləcək.

Mütəxəssislər isə bildirirlər ki, Ramana ərazisində yaranan vəziyyətin qarşısını qısa müddət ərzində almaq mümkün deyil. Bunun üçün ciddi işlər görülməlidir.

**Ekspert Əzim Məsimov "Yeni Müsavat"a mövzu ilə bağlı aşağıdakıları bildirdi:**

"Ərazidə mən də olmuşam və çox acınacaqlı vəziyyətin hökm sürdüyünü öz gözlərimlə görmüşəm. Əvvəllər həmin ərazilər əkin sahələri idi. İndi isə bu yerlərin hamısı su altında qalıb. Maştağa yolunun sağı da, solu da suyun içərisindədir. Orada sakinlərdən biri ilə söhbətim zamanı o mənə bildirdi ki, vaxtilə həyətimizdə quyu qazırdıq, 127-ci metrdə suya çıxdıq. Sakin bildirdi ki, hazırda su quyunun üç metrinə qədər qalxıb. Bütün bunun səbəbi ərazidə kanalizasiya sisteminin olmamasıdır. Mircəfər Bağırovun dövründə icazə verilməyib ki, həmin əraziyə su çəkilsin. Deyiblər ki, kanalizasiya sistemi çəkilməyən əraziyə su vermək olmaz. İndi də bütün Abşerona su xətti çəkiblər, ancaq kanalizasiya sistemi mövcud deyil. Eyni hal Ramanada da müşahidə olunur. Bu, ən böyük fəlakətdir. Min hektarlıq sahə su altında qalıb. İndi də Abşeron kanalında rekonstruksiya işləri görülür, betonlar qoyulur. Oradan da su gətiriləcək. Belə olarsa, vəziyyət daha da gərginləşəcək. Məsələ olduqca aktualdır və çox faciəvi bir haldır. Ərazinin sahibi yerli orqanlardır. Bir zamanlar ərazilərin hamısı Bakı Şəhər İcra Hakimiyyətinə tabe idi. Sonradan hamısı müstəqil rayon oldu və haranı gəldi, satmağa başladılar. Kim necə istəyirsə, elə də ev tikib, su çəkdirir. Əraziyə su dolduğu üçün bu cür vəziyyət yaranıb. Hesab edirəm ki, yaxın zamanlarda bu problemin həlli mümkün deyil. Mənə verilən məlumata görə, Bakıda kanalizasiya sisteminin qurulması üçün 16 milyard avro pul lazımdır. Bunu da indi başlasalar, 20 ilə çəkib qurtararlar. Çünki kanalizasiya sistemini qurmaq asan məsələ deyil. Bakıya sutkada 1 milyon yarım kubmetrdən çox su gəlir. Onun isə 3-də biri təmizlənmə stansiyasına gedir. Qalanı Abşerona axır. Ona görə də Abşeronda ildən-ilə suyun səviyyəsi qalxır. Suyun səviyyəsi qalxdıqca da camaatın həyətini su basır. Bir qədər də yağış yağanda vəziyyət daha da acınacaqlı olur".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 51 (7221) 5 mart 2019

# Ürəkdən necə güldüsə, boynu qırıldı



Böyük Britaniya sakini Monik Ceffri güldüyü zaman boyun fəqərəsini zədələyib. Maraqlıdır ki, gənc qadın beş il əvvəl asqırdığı zaman analoji travma almışdı. Qadın danışıb ki, işdə onun boynu ağrıyırmış. Amma təxminən bir saat sonra o, kolleqalarından birinin zarafatına güləndə bir hissəsini iflic vurduğunun fərqinə varıb. Xəstəxanada onu tomoqrafiyadan keçiriblər və məlum olub ki, bədəninin bir hissəsi iflic olub.

İlk insident 5 il bundan öncə, Cefri yataqda uzanan vaxt asqıranda baş verib. Başının sərt hərəkəti onun boyun fəqərəsində ciddi zədələnmə ilə nəticələnib. O, yerindən oyana bilməsə də, ərinə sms yollayıb ki, təcili yardım maşını çağırsın. Qadın 14 həftə boyunca boynunda xüsusi fiksatorla gəzib. Bu alət onun başını tərpətməsinə imkan vermirdi. Cefri isə bu durumla bağlı aşağıdakıları deyib: "Bundan sonra hər hansı gülüş və asqırmaq yoxdur və olmayacaq. Uzunmüddətli perspektivdə mən hər zaman ehtiyatlı olmalıyam".

2013-cü ildə isə xəbər verilmişdi ki, yaşlı bir amerikalı asqıran vaxt əlindəki tüfənglə özünə atəş açıb.



## 11 yaşlı oğlan 190 kilo idi, 9 kq olmaq istəyir

İndoneziyanın Qərbi Yava bölgəsində yaşayan 190 kilo ağırlığındakı 11 yaşlı oğlan arıqlamağa nail olub. Beynəlxalq media oğlanı "dünyanın ən ağır uşağı" adlandırır. Oğlan bir ay ərzində 31 kilo çəki itirib. Arya Permana adlı uşaq əvvəllər gündə 5 dəfə yemək yeyirdi. Onun iştahını iki böyük kişinin yemək tələbatı ilə müqayisə edirdilər. Çətinliklə hərəkət edən uşağın valideynləri onun həyatına görə narahatlıq keçirib və buna görə də həkimlərin müdaxiləsinə razı olublar. Həkimlər əməliyyatla onun mədəsinin bir hissəsini kəsib götürüblər. Əməliyyat piylənmə əleyhinə keçirilib.

Həkimlər hesablayıblar ki, bir il ərzində Perman daha 100 kilo itirə bilər. Uşağın üzərində 5 saatlıq əməliyyat keçirən həkim Handi Vinqin sözlərinə görə, əməliyyat keçirilməsə və dietaya oturmasa idi, uşaqda ya insult, ya da ürək xəstəliyi baş qaldıracaqdı.

Apreldə isə məlum olmuşdu ki, 9 yaşlı indoneziyalı Aldi Rizal siqareti atıb, arıqlayıb və məktəbdə öz dərsləri ilə məşğul olmağa başlayıb. Oğlan meyvə və tərəvəzlə qidalanmağa başlayıb və oxuduğu dördüncü sinfin ən aktiv, uğur qazanmış şagirdlərindən olub.

# Ayını tələdən xilas etdi, özünü türməyə atdılar

Amerikanın Nyu-Cersi ştatındakı Vernon yaşayış bölgəsində ayını tələdən çıxaran qadını azadlıqdan məhrum ediblər. Bu barədə "New Jersey Herald" nəşri xəbər verib. İnsident 2018-ci ilin oktyabrında baş verib. 22 oktyabrda Vernon sakini ayının aqressiv davranışına görə polisə müraciət edib. Bir gün sonra Vəhşi Təbiət və Balıq Resursları üzrə departament yaşayış bölgəsində ayı tələsi aşkarlayıb.

Dörd gün sonra 50 yaşlı Katerina və 43 yaşlı Mark aşkar ediblər ki, tələyə ayı düşüb. Tələyə dişi ayı və ayı balaları yaxınlaşsa da, onu azad edə bilməyib. "Mən etik olaraq bir qərar qəbul etdim ki, ayını azad edim və o, anasının yanına qayıtsın. Bu, çox düzgün addım idi" - Makkertni məhkəmədə belə deyib.

Qadını xuliqanlıqda, dövlət orqanlarının fəaliyyətini pozmaqda və vəhşi heyvanların yaxalanmasına görə qanun pozuntusuna yol verməkdə ittiham ediblər. Makkertnini 15 sutka müddətinə azadlıqdan məhrum ediblər və 1.2 min dollar cərimələyiblər.





## Nəvə 82 yaşlı nənəsinə tatuirovka etdirib

Britaniyanın Linkolnşir qraflığının sakini ilk tatuirovkasını 82 yaşında etdirib. Lenta.ru saytı xəbər verir ki, Cun Brayt adlı qadının tatuirovkası həyat yoldaşının adını əks etdirir. 2001-ci ildə dünyasını dəyişən əri Derrekin adı indi onun qolunda öz yerini tapıb. Britaniyalı cütlük qadının 13 yaşı olanda tanış olublar və birlikdə 53 il yaşayıblar. Təqaüdçü qadını tatu-salona nəvəsi Naomi aparıb. Brayt bu avantüraya 69 yaşlı rəfiqəsi yazılı tatuirovka etdirəndən sonra razılaşıb.

Amma bu, yaşlı insanların etdiyi ilk belə çılğınlıq deyil. May ayında məlum olmuşdu ki, 101 yaşlı britaniyalı Brayson Vilyam Verdun Heyes dünyanın ən yaşlı paraşütçüsü olub. Heyeslə birlikdə onun qohumları, eləcə də 74 yaşlı oğlu Brayan, 50 yaşlı nəvəsi Rover və 21 və 16 yaşlı nəticələri Elli ilə Stenli də hoppanıblar.




**QOÇ** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək iqtidarında deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra səfərə çıxın.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın. Soyuqdəymədən qorunun.

**XƏRÇƏNG** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı problemləriniz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**ŞİR** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**QIZ** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**TƏRƏZİ** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**ƏQRƏB** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**OXATAN** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olardı ki, nahardan sonra işə ara verib bir qədər dincələydiniz. Çünki axşam saatlarında astral bədəniniz zəifləyə bilər.

**OĞLAQ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmaq üçün tərəddüd etməyin.

**SUTÖKƏN** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**BALIQLAR** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma istənilən riskdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınların sevimli dayanacağı

Çinin iki bölgəsində maşın dayanacaqlarında qadınlar üçün xüsusi yer nəzərdə tutulub. 370-ə yaxın dayanacaqda qadınların maşın saxlayacağı yer çəhrayı rəngdə boyanıb. Yerli mətbuatın xəbərinə görə, qadınlar üçün ayrılan yer kişilərinkindən iki dəfə daha böyükdür. Yerli hakimiyyət qadınların həyatını yüngülləşdirmək üçün belə bir addım atdıqlarını açıqlayıb. Layihənin rəhbəri Pan Çjujenin dediyinə görə, bu, şəhərdə özünü qlobal şəkildə göstərən dayanacaq probleminin qarşısını cüzi də olsa almaq məqsədi daşıyıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.755